www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25-26 noyabr 2017-ci il Şənbə № 246 (6860) Qiymәti 60 qәpik

**Xəbər**

## Azərbaycan Silahlı Qüvvələrində yeni birləşmələr yaradılır

yazısı səh.2-də

**Gündəm**

### Türkiyə üçün kritik 2 il



**Elxan Şahinoğlu:** "Qərb istəmir ki, Ərdoğan növbəti seçkilərdə də qalib gəlsin"

yazısı səh.10-da

### 68 yaşlı "gənclər şəhəri"ndən reportaj - Sumqayıtda nələr olur...

yazısı səh.3-də

### Qazi-jurnalist Rey Kərimoğlunun Qarabağ savaşına dair kitabı işıq üzü gördü

yazısı səh.12-də

### Prokuror avtobus sürücüsünü döyən general oğluna 6 il cəza istədi

yazısı səh.5-də

### Səlim Müslümovun Qarabağ qazisi müavini kim olsun...

yazısı səh.12-də

### Əli Kərimlinin separatçılarla iş birliyi Azərbaycana nə vəd edir...

yazısı səh.11-də

### Partiya sədrləri 2018 seçkilərində prioritet saydıqları məsələlərdən danışdılar

yazısı səh.6-da

### Qarabağda başlayan erməni təlimlərinin pərdəarxası

yazısı səh.13-də

### Müxalifət partiyalarının YAP-dan umacağı var imiş

yazısı səh.6-da

### Hamı sadə toydan danışır, ancaq heç kim nümunə göstərmir...

yazısı səh.7-də

### İŞİD Azərbaycan sərhədlərində - qonşuluqdakı təhlükə ölkəmizə keçə bilərmi...

yazısı səh.11-də

## Tarixi təhrif edən ermənilərin vandalizmi davam edir

# DÜŞMƏN ŞUŞANIN SİMASINI DƏYİŞİR - QƏRBDƏ YIĞILAN İANƏLƏR HESABINA...

**Brüssel sammiti ərəfəsində erməni təxribatı:** separatçı Bako Saakyan və dəstəsinin Avropada diləndiyi paralar həm də qədim şəhərimizin görkəmini dəyişdirməyə yönəldiləcək; işğalçı həm də xofdadır; **erməni politoloq:** "Müharibə yaxınlaşır..."



yazısı səh.8-də

## Həbsdəki MTN generalı Eldar Mahmudovu istintaqa təhvil verir - gözlənilməz gəlişmə

### Elçin Quliyev sabiq şefinin qandallanması üçün yetərli ifadə verdi

yazısı səh.5-də



*Elxan Süleymanov:*

**"Bu siyasiləşmiş məğlubiyyət "Qarabağ"ın məğlubiyyəti deyil, Avropa demokratiyasının ikiüzlülüyüdür"**

yazısı səh.4-də



**ÜAK sədri Fazil Qurbanov yeni yaradılan təşkilatla bağlı danışdı**

yazısı səh.9-da



*Politoloq Arzu Nağıyev:*

**"Avropa dövlətləri NATO-nu tərk etməyəcək"**

yazısı səh.2-də



## Prezident istintaq və məhkəmənin şəxsə vurduğu ziyanın ödənməsinə dair MM-ə layihə təqdim etdi

**Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə "Polis haqqında", "Məhkəmələr və hakimlər haqqında" və "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında" qanunlara dəyişikliklər layihəsi təqdim olunub.**

APA-nın məlumatına görə, layihələrin payız sessiyasının sonuna kimi müzakirəyə çıxarılması gözlənilir.

Dəyişikliklərin məzmunu hələlik açıqlanmır.

## Azərbaycan Silahlı Qüvvələrində yeni birləşmələr yaradılır

**Azərbaycan Silahlı Qüvvələrində yeni silahlı birləşmələr yaradılır. APA-nın məlumatına görə, bu, yenidən hazırlanan "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsinin 1.0.3 maddəsində əksini tapıb.**

Maddədə bildirilir ki, "Azərbaycan Respublikasının başqa silahlı birləşmələri - Silahlı Qüvvələrin tərkib hissəsi olmaqla bu qanunla müəyyən edilmiş xüsusi vəzifələri yerinə yetirən və hərbi xidmət nəzərdə tutulan dövlət orqanları, yaxud onların strukturlarına daxil olan qurumlardır. Başqa silahlı birləşmələrə aid olan dövlət orqanlarının və ya onların strukturuna daxil olan qurumların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir".

Qanun layihəsi dekabrın 1-də Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq.

## Dünyanın ən böyük təşkilatında təlatüm yaranıb

### Politoloq: "Avropa dövlətləri NATO-nu tərk etməyəcək"

**"Bu məsələ son vaxtlar gündəmə daha çox gəlməyə başlayıb. ABŞ-la Avropa Birliyinin demək olar ki, bölüşmədiyi və razılığa gələ bilmədiyi məsələlərdən biridir".**

**Politoloq Arzu Nağıyev** Avropanın aparıcı dövlətləri ilə ABŞ arasında yaranmış mövcud problemləri, avrozonanın Atlantika Blokundan çıxması və "Yeni NATO" yaradılması istiqamətində meyillərini "Yeni Müsavat"a şərh edərkən söylədi. Musavat.com-un da yazdığı kimi, "Avropa müdafiə paktı" hazırda beynəlxalq siyasi arenada əsas müzakirə mövzusudur. Belə ki, bu sənədin üzərindən qurulacaq yeni qurumun NATO-ya birbaşa alternativ hərbi-siyasi alyans olacağı ehtimal edilir. Bundan əvvəl Avropa ölkələri ABŞ dollarına qarşı alternativ ortaya qoyaraq, avronu dövriyyəyə buraxdılarsa, artıq güc nümayişi hərbi alyans yaradılması istiqamətində müşahidə olunur. Belə görünür ki, Avropa dövlətləri ABŞ-ın patronajlığı altında fəaliyyət göstərməkdən, eyni zamanda NATO-ya üzvlük müqailində böyük vəsaitlər xərcləməkdən vaz keçməkdə qərarlıdırdırlar. Düzdür, Avropa Birliyinin özünün də problemləri var. Separatçılağın baş qaldırması, Birliyi tərk etməklə bağlıBöyük Beritaniyada gedən proseslər və s. Amma görünür, Birlik ölkələri dünyanın supergücü statusunda olan ölkənin yedəyində getməkdən usanıblar. Hər halda gedişat onu göstərir.

**Politoloq Arzu Nağıyev** isə fərqli fikirdədir: "Məlumdur ki, Avropanın ən aparıcı dövlətləri NATO-nun üzvüdürlər və bu təşkilat əksinə olaraq daha çox Avropa dövlətlərini öz sırasına qəbul etməyə başlayıb. Zənnimcə, bu dövlətlər də NATO-nu tərk etmək niyyətində deyillər. Böyük Britaniyanın Brexit məsələsindən sonra bu problem daha da qabarırıq şəkildə özünü göstərir. Avropa hətta öz xarici sərhədlərini qorumaq məsələsini də qaldırıb. Bir sözlə, Avropa dövlətləri NATO-nu tərk etməyəcək və hələ dəqiq məram və məqsədi olmayan qurumlarda da belə tezliklə təmsil olunmayacaqlar. Bu məsələ artıq ikinci bir hərbi blokun yaranması deməkdir. Ola bilsin bu avroskeptiklərin və millətçilərin əsas məqsədi olsun, bütün digər qüvvələrin bu ideyanı dəstəkləyəcəyi yaxın gələcəkdə perspektivi olmayan bir məsələdir".

❑ **Cavìd TURAN**

## Son iki ildə Azərbaycanda 43 qadın məişət zorakılığı zəminində qətlə yetirilib

**"Azərbaycanda 2015-2016-cı illərdə 43 qadın məişət zorakılığı nnəticəsində qətlə yetırilib". "Report" xəbər verir ki, bunu ABŞ-ın Azərbaycandakı səfirinin müavini Unilyam Gilln "Heç kim kənarda qalmasın: Qadınlara və qızlara qarşı zorakılığa son" adlı konfransda deyib.**

O bildirib ki, Azərbaycanda da qadınlara və qızlara qarşı zorakılıq edilir: "Azərbaycanda 2015-2016-cı illərdə qadınlara qarşı zorakılıqla bağlı 1688 fakt qeydə alınıb ki, nəticədə 43 qadın qətlə yetirilib".

U.Gilin sözlərinə görə, zorakılıq qaçılmaz haldır: "Dünyada hər 3 qadından biri zorakılıqla üzləşir".

# Avropadakı azərbaycanlılar Brüsseldə aksiya keçirdi

**Azərbaycanlılar bu gün Belçika Krallığının paytaxtı Brüsseldə, Avropa Parlamentinin binası qarşısında etiraz aksiyası keçirib.**




Diasporla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Avropa Azərbaycanlıları Konqresinin təşkil etdiyi aksiyada 250 nəfərə yaxın şəxs iştirak edib.

Aksiyanın məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması ilə bağlı Avropada yaşayan azərbaycanlıların narahatlığını Avropa parlamentarilərinin diqqətinə çatdırmaqdır.

Əllərində Azərbaycan bayraqları tutan mitinq iştirakçıları münaqişə nəticəsində azərbaycanlılara qarşı törədilmiş soyqırımı və terror aktları, bir milyondan çox soydaşımızn məcburi köçkünə çevrilməsi, Azərbaycan torpaqlarının 20 faizinin işğaldan azad edilməsi ilə bağlı şüarlar səsləndirib.

İki saat davam edən aksiyanın sonunda Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, məcburi köçkünlərin öz torpaqlarına qayıtması üçün Avropa İttifaqının, ümumiyyətlə bütün dünya birliyinin bu problemə ədalətli qiymət verməsini tələb edən bəyanat qəbul edilib.

Bəyanatda Ermənistanın təcavüzkar siyasətinin regionda sülhə və sabitliyə təhlükə yaratdığı, on minlərlə insanın qətlə yetirilməsinə səbəb olduğu vurğulanır. Avropada yaşayan Azərbaycan diaspor təşkilatlarının nümayəndələri Ermənistanın, habelə erməni diasporu və lobbisinin etnik düşmənçilik, millətlərarası ədavət, kin və nifrət təlqin edən fəaliyyətindən dərin narahatlığını ifadə edir və dünya dövlətlərini bu cür təşəbbüslərə qarşı adekvat addımlar atmağa çağırıb. Bəyanatda həmçinin Ermənistanın Azərbaycana təcavüzü, Xocalı soyqırımı barədə faktlar diqqətə çatdırılır və dünya dövlətlərindən "Böyük Ermənistan" xülyasının nəticəsi kimi meydana çıxan, bölgədə təhlükəsizlik üçün böyük təhdidə çevrilən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dəstək vermək, Ermənistanın terrorçu və təcavüzkar siyasətinə son qoymaq üçün səy göstərmək tələb olunur.

Qeyd edək ki, aksiyada Avropada fəaliyyət göstərən bir çox Azərbaycan diaspor təşkilatlarının nümayəndələri iştirak edib.



## Hərbi Hava Qüvvələrinin taktiki təlimləri keçirilib

**Silahlı Qüvvələrin hazırlıq planına əsasən Hərbi Hava Qüvvələrinin birləşmə və hissələri ilə taktiki təlimlər keçirilib.**

Musavat.com-un Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, təlimlərdə hərbi hissələr təyin edilən vaxtlarda döyüşə tam hazırlıq vəziyyətinə gətirilib, idarəetmə orqanları və bölmələr manevr edərək yeni mövqeləri tutub.

Qərargahlarda və bölmələrdə döyüş fəaliyyətlərinin planlaşdırılması və hazırlığı üzrə işlər aparılıb. Heyətlərin bacarığı və hərbi texnikanın imkanları döyüş təyyarələrinin uçuşlarının təqlid edilməsi və hava hədəflərinə qarşı döyüş işinin aparılması ilə yoxlanılıb. Bölmələr dağlıq relyef və mürəkkəb radioelektron maneə şəraitində sürətli hava hədəflərini vaxtında aşkarlayaraq dəqiq atəşlə məhv edib.

Təlimlər bitdikdən sonra bölmələr daimi yerləşmə məntəqələrinə qayıdıb.



## Misirdə məscid partladıldı - 250 ölü

**Misirin Sinay yarımadasının şimalında terrorçuların məscidə hücum edərək, partlayış törədiblər. "Report" xarici KİV-lərə istinadən xəbər verir ki, hücum əl-Ariş şəhərinin əl-Raud kəndindəki məsciddə cümə namazı vaxtı törədilib.**

Terrorçular məscidin içində özlərini partladıblar.

Terakt nəticəsində ölənlərin sayı 250-yə çatıb. Yüzlərlə yaralının olduğu bildirilir. Bu səbəbdən ölü sayının artacağı istisna deyil.

Misirin Sinay yarımadasında məscidə hücum etmiş 15 silahlı məhv edilib.

APA-nın xəbərinə görə, bu barədə "SkyNews Arabia" telekanalı məlumat verib.

Məlumata əsasən, pilotsuz uçan aparatlar səhra ərazisində silahlıların olduğu iki avtomobilə hava zərbələri endirib. Zərbələr nəticəsində azı 15 silahlının məhv edildiyi bildirilir.

Partlayışla bağlı Misir prezidenti Əbdül Fəttah Əl Sisi təcili toplantı keçirib. Partlayışla əlaqədar Misirdə üçgünlük matəm elan olunub.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## Xaricdəki səfirliklərin bəzi əməkdaşları gəlir vergisindən azad edilir

**Azərbaycanın xaricdəki səfirlik və konsulluqlarında çalışan ticarət nümayəndələri və onların aparat işçiləri rəsmi məşğulluqdan olan gəlir vergisindən azad edilir.**

APA-nın məlumatına görə, bununla bağlı Vergi Məcəlləsinin 102-ci (Gəlir vergisindən azadolmalar və güzəştlər) maddəsinə əlavələr edilir.

Maddənin birinci hissəsində gəlir vergisindən azad edilənlər sırasına "Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarında ticarət nümayəndələri və onların aparatlarının işçilərinin rəsmi məşğulluğundan olan gəlir" də əlavə edilir.

Layihə Milli Məclisin dekabrın 1-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

## Ərdoğan Kılıcdaroğlunu məhkəməyə verdi

**Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğan əsas müxalifət partiyasının, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıcdaroğlunu məhkəməyə verib.**

"Report" "CNNTürk"ə istinadən xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan Kamal Kılıcdaroğlundan mənəvi təzminat tələb edib.

Türkiyə prezidenti özünə, övladlarına və ailəsinə yönəlik təhqiramiz ifadələrə görə CHP sədrini məhkəməyə verib və ondan 1,5 milyon lirə (381 772 dollar) məbləğində təzminat istəyib.

## "Dağlıq Qarabağ münaqişəsi diqqət mərkəzində saxlanılmalıdır" - ATƏT PA-nın prezidenti

**"Həll edilməmiş münaqişələrin nizama salınması istiqamətində səyləri artırmaq vacibdir".**

"Report"un verdiyi xəbərə görə, bu barədə Kopenhagendə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Daimi Komitəsinin iclasında çıxışı zamanı ATƏT PA-nın prezidenti Georgi Tsereteli bildirib.

"Fərq etməz, hansı münaqişə və ya torpaqların işğalı barədə danışırıq, Ukraynada, Azərbaycanda və ya Gürcüstanda baş verən münaqişələr, hər gün bunların nəticəsində insanlar əziyyət çəkir", - o deyib.

"Bu məsələ diqqət mərkəzində saxlanılmalıdır", - ATƏT PA-nın prezidenti qeyd edib.

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017

**Bu günlərdə Sumqayıtın salınmasından 68 il keçdi. Hələ Sovet dövründə Azərbaycanın əsas sənaye mərkəzi statusuna sahib olan Sumqayıt bu adı indi də daşımağa qadirdir. Son illər şəhərdə onlarca yeni istehsal müəssisələrinin yaradılması, bir sıra ənənəvi istehsal sahələrinin fəaliyyətinin canlandırılması bunu təsdiq edir. Ümumiyyətlə, Sumqayıt bir çox istiqamətlər üzrə qazandığı nailiyyətlərlə fərqlənir.**

# 68 yaşlı "gənclər şəhəri"...

## Sumqayıtda nələr olur-reportaj



























Sovet dövründə Sumqayıtda əsas etibarilə metallurgiya və kimya müəssisələri var idi. Daha sonra yüngül sənaye müəssisələri və sənayenin digər sahələri inkişaf etdirildi, yeni istehsal sahələri istismara verildi və şəhər öz iqtisadi potensialına görə SSRİ məkanında tanınmağa başladı. Onun istehsal etdiyi məhsullar SSRİ-nin 700 şəhərinə ixrac olunurdu.

Sumqayıt bu gün də inkişafına görə fərqlənir. Şəhərin yaradılmasının 68 illiyi münasibətilə Sumqayıtda təntənəli tədbirlər keçirilir. Mətbuatda tez-tez Sumqayıt şəhərinin inkişafından, orada aparılan abadlıq-quruculuq işlərindən yazılır.

"Yeni Müsavat" qəzetinin müxbiri də Sumqayıtda görülən işlərlə tanış olmaq və son illərdə hansı işlərin görüldüyünü işıqlandırmaq məqsədilə bu şəhərə baş çəkib.

İlk növbədə Sumqayıtdakı vəziyyəti öyrənmək üçün şəhər sakinləri arasında sorğu keçirdik. Sumqayıtlılar şəhərdə aparılan abadlıq-quruculuq işlərindən razı qaldıqlarını dedilər.

Sumqayıt sakini Sabiq Nəsirov "gənclər şəhəri"ni belə təsvir etdi: "Şəhərimizin 68 illiyi oldu. Bu bizim üçün böyük şərəfdir. Sumqayıt gün-gündən gözəlləşir. Yeni tikililər ucalır, parklar salınır. Dincəlmək üçün hər bir şəraitimiz var. Şəhərimiz havası, gəzməli-görməli yerləri ilə məşhurdur. Son zamanlar şəhərdə xarici turistləri görürük. Bu hər bir sumqayıtlını sevindirir. Bura bizim ikinci Bakımızdır".

Sumqayıtda aparılan işlərlə də tanış olduq. Öyrəndik ki, şəhərdə bir neçə mühüm layihələr həyata keçirilib.

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Eyvaz Qocayev** görülən işlərlə bağlı "Yeni Müsavata" məlumat verdi. O, şəhərdə məcburi köçkünlərə yaradılan şəraitdən danışdı: "Sumqayıtda işğal altında olan ayrı-ayrı rayonlardan 52 mindən çox qaçqın və məcburi köçkün məskunlaşıb. Bizim şəhərdə məcburi köçkünlər üçün salınan şəhərcikdə tikinti işləri sürətlənib.

Bu gün də Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş 2017-ci il 9 mart tarixli müşavirədə bir sıra mühüm problemlərə toxunan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın aidiyyəti qurumların rəhbərlərinə qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün verdiyi tapşırıq Sumqayıt şəhərində uğurla icra edilir.

Belə ki, çoxmərtəbəli binaların tikilməsi üçün şəhər icra hakimiyyəti tərəfindən 2,8 hektar yer ayrılıb və hazırda həmin ərazidə böyük şəhərcik salınır. Yaşayış binalarının altısı 8, ikisi 14, ikisi isə 15 mərtəbəli olacaq. Bu binalarda, ümumilikdə, 936 mənzil nəzərdə tutulub ki, onlardan da 278-i üç, 520-si iki, 138-i isə birotaqlıdır".

**E.Qocayev 3 il ərzində dövlət səviyyəli mühüm layihələrin həyata keçirildiyini vurğuladı:** "Bu illər ərzində şəhər əhalisinin təbii qaza, suya, elektrik enerjisinə olan tələbatının ödənilməsi, sosial təyinatlı obyektlərin tikintisi və bərpası ilə bağlı xeyli iş görülüb. Sürətlə abadlaşan Sumqayıt bu gün sanki yenidən qurulur. Burada təkcə ötən 3 il ərzində öz əhəmiyyətinə görə respublika səviyyəli mühüm layihələr həyata keçirilib və ölkəmizdə gedən artım tempinə uyğun şəkildə bir sıra nailiyyətlər əldə edilib. Sumqayıtda yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi ilk növbədə əhalinin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən əsaslı tədbirlərdəndir. Şəhər daxili küçələrin, eləcə də məhəllədaxili yolların asfaltlanması işləri mərhələli şəkildə davam edir. Uzunluğu 4 kilometr olan Koroğlu küçəsi, eləcə də uzunluğu 1,6 kilometr olan Nizami küçəsi yenidənqurmadan sonra artıq şəhər sakinlərinin istifadəsinə verilib. Uzunluğu 9 kilometr olan, uzun illərdən bəri təmir olunmayan Səməd Vurğun küçəsi yenidən qurulur. Küçənin yenidən qurulması təkcə sakinlərin işini deyil, eləcə də bu yolun ətrafında yerləşən kimya müəssisələrinin, zavodların yük və sərnişin daşınmasındakı rahatçılığını xeyli yaxşılaşdıracaq. Bütün bu işlər Şəhər İcra Hakimiyyətinin daxili imkanları hesabına görülür".

Sumqayıt Bulvarında Bayraq Muzeyinin də inşasında son tamamlanma işləri aparılır. İki mərtəbədən ibarət olacaq muzeyin tikilməsində əsas məqsəd cəmiyyətdə vətənpərvərlik ruhunun daha da yüksəldilməsinə təkan verməkdir. Binada müasir havalandırma və işıqlandırma sistemi quraşdırılıb. Muzeyin fasad hissəsi aqlay daşlarla üzlənib.

Şəhərdə müşahidələrimiz zamanı onu da öyrəndik ki, Bakı, Mehmandarov, R.Qəhrəmanov, Rustavi, Çerkassi, Həsən Əliyev, 20 Yanvar, Bədəlbəyli , küçələrində asfaltlanma işləri yekunlaşıb, 1, 5, 8, 9, 11, 17-ci mikrorayonlarda, eləcə də 2, 3, 4 və 14-cü məhəllələrdə məhəlledaxili yollar asfaltlanma işləri aparılıb. Məhəllə və mikrorayonlarda, küçə və prospektlərdə 350 min kvadratmetr sahəyə asfalt örtüyü vurulub. Digər mikrorayon və məhəllələrdə də ardıcıl şəkildə asfalt işləri mərhələli şəkildə aparılacaq. Şəhərin simasının dəyişməsi, müasir görkəmə salınması şəhər sakinlərində belə bir əminlik yaradır ki, gələcəkdə Sumqayıt da turizm şəhəri kimi məşhur olacaq.

Sumqayıtda gəzərkən binaların dam örtüklərinin dəyişdirildiyini və fasadların üzlənməsi işlərinin aparıldığını müşahidə etdik. Xatırladaq ki, Sumqayıtın mənzil fonduna cəmi 1364 yaşayış binası daxildir. Şəhərdə gedən quruculuq-abadlıq işləri nəticəsində bu günə qədər şəhər üzrə 600-ə yaxın binanın dam örtüyü metal kirəmit örtüklə əvəzlənib.

Görülən bu işlər şəhər əhalisinin də diqqətindədir. Sumqayıt sakinləri arasında sorğu da keçirdik. Şəhər sakinləri Sumqayıtın artıq perspektivli turizm şəhəri olmağa da iddialı olduğunu bildirdilər: "Gördüyünüz kimi şəhərimizdə tikinti-quruculuq, abadlıq işləri sürətlə aparılır. Ölkəmizin sənaye mərkəzlərindən biri olan Sumqayıtın Xəzərin sahilində, Bakının qonşuluğunda olması, şəhərin yenidən qurulması, yeni dənizkənarı bulvarın salınması, infrastrukturun yenilənməsi, parkların salınması bu şəhərin yaxın gələcəkdə turizm sahəsində də öz yerini tutacağından xəbər verir. Artıq Sumqayıt Bulvarının səsi sorağı dünyanın böyük və məşhur şəhərlərindən gəlir. Sumqayıt Bulvarı və dənizkənarı parkı öz böyüklüyü ilə yanaşı, çimərliyə birbaşa çıxışının olması ilə də fərqlənir. Odur ki, vaxtı ilə fəhlə şəhəri adı ilə məşhur olan Sumqayıt artıq turizm şəhəri statusu almağa iddialıdır.

Qeyd edək ki, Sumqayıt Bulvarı "Global Trade Leaders" klubunun "Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı"na (International Europe Award for Quality) layiq görülüb. Mükafatı təsisatın baş katibi Rikardo Lopes oktyabrın 16-da qurumun Paris "Meridien Etoile" otelində keçirilən forumunda təqdim edib.

Forumda 5 qitədən 150 nümayəndə iştirak edib. 32 ölkənin təqdimatından 22-si mükafata layiq görülüb ki, bunlardan biri də Sumqayıt Bulvarı olub. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Teymur Səmədov və Bulvar idarəsinin rəisi Yavər Vəliyev təqdimat mərasimində iştirak edib.

❑ **Məğrur SALMANOV**
❑ **Fotolar müəllifindi**

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017






## "Aİ tərəfdaşları ilə gələcəkdə əlaqələri möhkəmləndirməyə sadiqdir"

### "Şərq tərəfdaşlığı" sammitinin yekun Bəyannamə qəbul edildi; "Azərbaycanla birgə aviasiya məkanı razılaşması üzrə danışıqların tez bir zamanda bitməsinə dəstək ifadə edirik"

**Brüsseldə 5-ci Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammiti baş tutub. APA-nın Brüsselə ezam olunmuş müxbiri xəbər verir ki, sammitdə Avropa Komissiyasının prezidenti Jan klod Yunker, Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa İttifaqı Şurasına bu il sədrlik edən Estoniya baş naziri Juri Ratas, Azərbaycan prezidenti İlham Əliyev Fliyev və digər rəsmilər iştirak ediblər.**

"2020-dək 20 hədəf: Vətəndaşlar üçün təsirli nəticələrin əldə olunması" adı altında təşkil olunmuş sammitin sonunda yekin bəyannamə qəbul olunub.

Bəyannamə "Şərq tərəfdaşlığı" ölkələri və Aİ-yə üzv ölkələrdən olan bütün nümayəndə heyətlərinin rəhbərləri tərəfindən təsdiqlənib.

"Avropa İttifaqı bütün tərəfdaşlarının suverenliyi, ərazi bütövlüyü və müstəqilliyini dəstəkləyir".

Bu barədə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitinin yekun Bəyannaməsində deyilir.

Sənəddə qeyd olunur ki, sammit iştirakçıları dünyanın bir çox yerində beynəlxalq hüququn prinsiplərinin pozulmasının hələ də davam etməsi ilə bağlı dərin narahatlıqlarını ifadə edir. Sammit iştirakçıları regionda həll edilməmiş münaqişələrin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun sülh yolu ilə həllini təşviq edən səylərin artırılmasına çağırır.

Münaqişələrin həlli, etimadın qurulması və qonşuluq münasibətləri iqtisadi və sosial inkişaf və əməkdaşlıq üçün vacibdir.

"Sammit iştirakçıları mövcud formatlar çərçivəsində və ya formatların dəstəklənməsi ilə, həmçinin, lazım gəldikdə ərazilərdə fəaliyyət göstərməklə münaqişələrin həlli və etimadın qurulması istiqamətində səyləri və Aİ-nin güclənmiş rolunu alqışlayır", - deyə Bəyannamədə vurğulanır.

**Şərq tərəfdaşlığı" sammitinin Bəyannaməsində Azərbaycanla aviasiya məkanı razılaşması dəstəklənir.**

"Azərbaycanla birgə aviasiya məkanı razılaşması üzrə danışıqların tez bir zamanda bitməsinə dəstək ifadə edirik" - deyə sənəddə qeyd edilir: "Enerji təminatının təhlükəsizliyi üzv və tərəfdaş ölkələr arasında genişləndirilmiş təbii qaz və elektrik rabitəsi ilə inkişaf etdirilə bilər. Müasirləşdirilmiş Ukrayna qazötürücü sistemi strateji Cənub Qaz Dəhlizi layihəsini işlək və Mərkəzi Asiyaya kimi uzanmasını təmin edir".

Avropa İttifaqının "Şərq tərəfdaşlığı" sammitinin yekun Bəyannaməsində deyilir ki, Avropa İttifaqının (Aİ) "Şərq tərəfdaşlığı" sammitinin iştirakçıları Aİ və Azərbaycan arasında tərəfdaşlığa dair yeni çərçivə razılaşmasının imzalanması istiqamətində davam edən danışıqlardakı müsbət irəliləyişi alqışlayır.

Bəyanatda qeyd olunur ki, Avropa İttifaqı Ermənistan, Azərbaycan və Belarus da daxil olmaqla hər bir tərəfdaş ölkə ilə qarşılıqlı ticarətin gücləndirilməsi üçün cəlbedici və real variantları və ümumi maraqları əks etdirən investisiya təşviqini, eləcə də beynəlxalq ticarət qaydaları və ticarətlə əlaqəli beynəlxalq standartlar, o cümlədən intellektual mülkiyyət sahəsində, iqtisadiyyatın modernləşdirilməsi və diversifikasiyası sahəsində birgə danışıqları davam etdirəcək.

Növbəti sammitin 2019-cu ildə keçirilməsi qərara alınıb.

"Azərbaycanla yeni hərtərəfli saziş üzrə danışıqlar davam etdirilib".

Bu sözləri isə Aİ Şurasının prezidenti Donald Tusk Aİ "Şərq tərəfdaşlığı" sammitinin sonunda keçirilən mətbuat konfransında deyib.

**O bildirib ki, tərəfdaş ölkələrdə davam edən münaqişələr əməkdaşlığa mane olur:** "Aİ tərəfdaşları ilə gələcəkdə əlaqələri möhkəmləndirməyə sadiqdir. Bizim üçün əməkdaşlıqda birlik nümayiş etdirmək ən vacib məqsəddir. Biz tərəfdaş ölkələrin ərazi bütövlüyü suverenlik və müstəqilliyinə dəstək ifadə edirik. Sammitin nəticələrindən razıyıq və gələcək əməkdaşlığa ümid edirik".

Sammit çərçivəsində Aİ ilə Azərbaycan arasında Trans-Avropa Nəqliyyat Şəbəkəsinə dair sənəd imzalanıb

**Sənədi Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Mogerini imzalayıblar.**

# Elxan Süleymanov "Qarabağ"a qarşı ədalətsizliyin siyasi səbəblərini açıqladı

## "Bu siyasiləşmiş məğlubiyyət "Qarabağ" klubunun məğlubiyyəti deyil, Avropa demokratiyasının ikiüzlülüyüdür"

**Millət vəkili, AVCİYA prezidenti Elxan Süleymanov "Qarabağ" futbol klubu barədə maraqlı yazı yazıb. Musavat.com deputatın məqaləsini təqdim edir:**



**"Azərbaycanın Dağlıq Qarabağ" ifadəsinin işlədilməsini qadağan edən ermənipərəst dünya birliyi "Qarabağ" klubunun qalib gəlməsinə yol verə bilməzdi"**

- Azərbaycanın "Qarabağ" futbol klubunun UEFA yarışlarında uğur qazanmasına dünya futbol rəsmiləri heç vaxt yol verə bilməz. Belə ki, bütün beynəlxalq təşkilatlar, dünya birliyi, güc mərkəzləri 25 ildən artıqdır "münaqişə" ifadəsi ilə Azərbaycan torpaqlarının işğalını mübahisəli ərazi kimi qələmə verməklə, dünya ictimaiyyətində yanlış fikir formalaşdırmağa cəhd edirlər. Beynəlxalq təşkilatlardakı fəaliyyətim zamanı qarşılaşdığım haqsızlıqlar mənim belə bir qənaətə gəlməyimə əsas verir. Odur ki, oyunlarda yüksək peşəkarlıq göstərən Qarabağ FK üzvlərinə, məşqçilərinə, eləcə də oxuculara beynəlxalq təşkilatlarda qarşılaşdığım bəzi məsələlər barəsində qısa məlumat vermək istərdim.

Mən 24 iyun 2014-cü ildə bir qrup AŞPA deputatının imzası ilə AŞPA katibliyinə "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" adlı qətnamə layihəsi təqdim etdim. Bu qətnamə layihəsindəki "Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğalı" ifadəsi rəsmi sənədlərdə ilk dəfə olaraq işlədilirdi. Bu səbəbdən AŞPA-nın Siyasi Komitəsində, Büroda və sessiyada bu qətnaməyə məruzəçinin təyin edilməsi üçün görünməmiş mübarizə getdi. Bu mübarizəyə əsas səbəb qətnamə layihəsinin "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" kimi adlandırılması idi. Belə ki, bu ad faktiki olaraq erməniləri və Ermənistan dövlətinin uzunmüddətli işğalçı siyasətini puç edirdi. Ermənistan dövlətinin və erməni lobbisinin çağırışı ilə, Qarabağ problemi ilə guya məşğul olan ATƏT-in Minsk Qrupu, güc mərkəzləri, bütün beynəlxalq təşkilatlar və QHT-lər, Türkiyə istisna olmaqla, 45 AŞ ölkəsi din amilini əsas tutaraq, bu məruzənin qarşısının alınması üçün birləşdi. Xristian dünyasının tanınmış siyasətçiləri, dövlət məmurları, din, mədəniyyət və incəsənət xadimləri, müğənnilər, hətta idmançılar da öz din qardaşları olan ermənilərə, işğalçı dövlətə kömək üçün ayağa qalxdılar. Nəticədə, bir il yarım davam edən mübarizəyə və Komitədə və Büroda məruzəçinin təsdiq olunması uğrunda gedən döyüşlərdə qalib gəlməyimizə baxmayaraq, 26 yanvar 2016-cı ildə AŞPA-nın qış sessiyasında məruzə 4 səs fərqi ilə (66 səs lehinə, 70 səs əleyhinə, 45 səs bitərəf) qəbul edilmədi.

Həmin sessiyada eyni zamanda Sərsəng su anbarı ilə bağlı mənim qətnamə layihəm əsasında hazırlanan "Azərbaycanın cəbhəyanı ərazilərinin sakinləri qəsdən sudan məhrum edilir" adlı məruzə də dinlənilirdi. Bu məruzədə də Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi əks olunurdu. Lakin düşmən bu döyüşdə qələbə qazana bilmədi. Bu qətnaməni ona görə xatırlatdım ki, bütün hücum və manеələrə baxmayaraq, davamlı mübarizə əzmində qələbə əldə etmək mümkündür. İnanıram ki, "Qarabağ" futbol klubu da öz əzmi ilə ən yüksək qələbələrə nail olmağa qadirdir.

Hər iki məruzədə bir məqsədimiz vardı: Ermənistanın işğalçı siyasətini ifşa etmək, Azərbaycan torpaqlarının məhz Ermənistan dövləti tərəfindən işğal edilməsini sənədləşdirmək. Robert Volterin məruzəçisi olduğu "Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərində gərginliyin artması" məruzəsində qarşılaşdığımız maneələr və uduzduğumuz hesab UEFA kubokunda Azərbaycanın "Qarabağ" komandasının İngiltərənin "Çelsi" futbol klubuna eyni hesabla, 0-4 hesabı ilə uduzmasına bənzəyir. Bu, bənzətmə deyil, bu, acı həqiqətdir, çünki Azərbaycanın "Qarabağ" futbol klubunun UEFA kubokunda iştirakı, İngiltərə, İspaniya, İtaliya kimi ölkələrin möhtəşəm futbol klubları ilə saysız-hesabsız azarkeşlər qarşısında oynaması işğalçı Ermənistanın Azərbaycan torpaqlarını işğalda saxlama siyasətinə mane olur. "Qarabağ" komandasının bu mötəbər kubokda iştirakı yalnız ölkənin futbol uğuru deyil, bu həm də Azərbaycan həqiqətlərinin, Azərbaycan torpaqlarının Ermənistan dövləti tərəfindən işğalının, Qarabağın Azərbaycan torpağı olmasının dünya ictimaiyyətinə çatdırılmasıdır. Bu isə dünya güc mərkəzlərinin, beynəlxalq təşkilatların Ermənistanın xeyrinə apardığı siyasətin məhv edilməsinə xidmət edir. "Qarabağ" klubu irəli getdikcə milyonlarla insan Qarabağın Azərbaycan torpağı olmasını öyrənir. Bu səbəbdən "Azərbaycanın Dağlıq Qarabağ" ifadəsinin işlədilməsini qadağan edən ermənipərəst dünya birliyi "Qarabağ" klubunun qalib gəlməsinə yol verə bilməzdi.

İstisna deyil ki, "Qarabağ" futbol klubunun son üç oyununda hakimlərin komandamıza qarşı görünməmiş ədalətsizliyi və nifrəti məhz güc mərkəzləri tərəfindən verilmiş siyasi sifariş idi. "Qarabağ" klubunun sıradan çıxarılması üçün açıq-aydın və məqsədyönlü strategiya hazırlanmışdır. Son oyunlarda baş verən faktlar bu strategiyanın tərkib hissəsi idi. Komandanın ən güclü oyunçuları Dino Ndlov, Pedro Enriqueyə qırmızı vərəqə verilib, növbəti iki oyuna buraxılmaması və son oyunda komandanın kapitanı Rəşad Sadıqova qırmızı vərəqənin verilməsi, eyni zamanda 2 dəfə 11 metrəlik cərimə zərbələrinin təyin edilməsi bunun bariz göstəricisidir.

Bu faktlar hər biri səbəbsiz baş vermiş, qərəzlilik və nifrət göstəricisi idi. Bu, dünya miqyasında məşhur olan "Çelsi" klubunun "Qarabağ" klubu üzərində qələbəsi deyildi, bu, nifrət və küdurət dolu hakimin qələbəsi idi. Bu siyasiləşmiş məğlubiyyət "Qarabağ" klubunun məğlubiyyəti deyil, Avropa demokratiyasının ikiüzlülüyüdür.

**Hörmətli Qurban Qurbanov və "Qarabağ" klubunun oyunçuları,**

Nəzərə almalısınız ki, Siz "Qarabağ" adı ilə Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin işğal edilməsini dünyaya çatdıran sürətli təbliğat maşınını idarə edirsiniz. Komandanızın və qələbələrinizin populyarlığı beynəlxalq təşkilatların işğalçı Ermənistanı müdafiə etməsini çətinləşdirir. Siz həmişə xristian aləminin diqtəsi ilə işləyən hakimlərin müsəlman ölkəsinə təzyiqlərinə və nifrətinə hazır olmalı, mübarizə əzminizi itirməməlisiniz. İşğal edilmiş ərazilərimiz o vaxt Azərbaycana qayıda bilər ki, Azərbaycan informasiya müharibəsində qalib gəlsin. "Qarabağ" futbol klubu möhtəşəm oyunlar nümayiş etdirməklə, Azərbaycanın dünyada ən güclü informasiya raketinin daşıyıcısına çevrilir.

Sizə və komanda üzvlərinə dözümlülük və əzmkarlıq arzu edirəm!

❑ **Elxan SÜLEYMANOV, Şamaxının Millət Vəkili**

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev və Mərkəzin əməkdaşı, polkovnik Azər Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesi davam edir.**

# Həbsdəki MTN generalı Eldar Mahmudovu istintaqa təhvil verir -gözlənilməz gəlişmə

## Elçin Quliyev sabiq şefinin qandallanması üçün yetərli ifadə verdi

Artıq prokuror Elçin Quliyevin 15 il, Azər Mehdiyevin 13 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Eyni zamanda onların hərbi rütbədən məhrum olunması və əmlaklarının müsadirə edilməsi də təklif edilib.

Məhkəmənin gedişatında E.Mahmudovun əleyhinə danışmayan sabiq işçisi Elçin Quluyev ona cəza istənildən sonra çox kəskin çıxış edib.

**Bildirib ki, heç bir cinayəti yoxdur. O, kimin cinayət etdiyini açıqlayıb:** "Mən özümü təqsirkar bilmirəm. Çünki mənim heç bir günahım yoxdur. Cinayət törətməmişəm".

**Zərərçəkmiş Mətləb Mustafayevin həbs edilməsinə münasibət bildirən general-mayor deyib ki, bunun sifarişini məhz nazir özü edib**: "Eldar Mahmudov prokurorluqla razılaşdıraraq, Mətləbin evinə tapança qoydurub, həbs etdirib".

**Zərərçəkmiş Mətləb Mustafayev də bildirib ki, Elçin Quliyev ötən prosesdə çıxış edərək Eldar Mahmudovun onunla görüşmək istədiyini deyib**: "Çıxışında açıqca dedi ki, Eldar Mahmudov vəzifədən azad olunandan sonra onunla məxfi yollarla görüşmək istəyib, lakin Elçin razılaşmayıb. Bundan başqa, Elçin Quliyev həbsxanada intihar edən İlqar Əliyevdən danışdı. Elçin çıxışında İlqarın ona zəng edərək, vəkil istədiyini dedi".

Vəkili E.Quliyevin barəsində bəraət hökmünün çıxarılmasını və mülklərindən həbsin götürülməsini tələb edib. Polkovnik Azər Mehdiyevin vəkili də çıxış edərək bəraət istəyib. Proses noyabrın 27-də davam edəcək.

Elçin Quliyev MTN-in Antiterror Mərkəzinin rəisi olub. MTN-lə bağlı həbslər başlayanda o, adıçəkilən qurumun akademiyasına kafedra rəisi təyin edilmişdi. Daha sonra cinayət işi üzrə həbs olundu.

**Onun məhkəmədəki Eldar Mahmudova yönəlik çıxışları ilə tanış olan ekspertlər deyirlər ki, general-mayor sabiq şefinə qarşı çox ciddi ifşaedici mövqedədir. Onun məhkəmədə açıqladığı məlumatlar ciddi şəkildə araşdırılmalı və hüquqi qiymət verilməlidir**: "Hüquqi baxımdan yanaşanda Elçin Quliyevin məhkəmədəki fikirləri Eldar Mahmudovun istintaqa cəlb olunması üçün əsas ola bilər. İstintaq Elçin Quliyevin ifadəsini alıb təsdiqləyici sübutlar toplamalı, zərərçəkən tərəfi dinləməlidir. Elçin Quliyevin dedikləri həqiqətdirsə, Mətləb Mustafayevin evinə silahı Eldar Mahmudovun sifarişi ilə qoyub özünü həbs ediblərsə, bu halda Eldar Mahmudova ittiham irəli sürülməsi üçün əsas yaranır.





Düzdür, Eldar Mahmudovun MTN-də baş verən cinayətlərdə nazir kimi dolayı və birbaşa əli olduğu bilinən cinayətlər haqda çoxsaylı məlumatlar var. Hazırda isə sabiq nazirin əleyhinə birbaşa tabeçiliyində olmuş, general-mayor rütbəli biri ifadə verir. Bu çox ciddi bir olaydır və Eldar Mahmudovun həbs ediləcəyi artıq mübahisə doğurmur. Bundan başqa sabiq nazirin barəsində bir qədər əvvəl xüsusi qərardad da çıxarılıb və cinayət işi başlanılması üçün Baş Prokurorluğa göndərilib. Göründüyü kimi, Eldar Mahmudov barəsində son addımın atılması üçün bütün şərtlər var. Onu yaxın zamanda həbs edəcəklər. Hazırda baş verənlər bunu qaçılmaz edir".

**Ekspert xatırladır ki, E.Mahmudovla bağlı 2 ildən artıq müəmmalı şəkildə davam edən proses artıq yeni mərhələyə qədəm qoyub**: "Milli Təhlükəsizlik Nazirliyində 2015-ci ilin oktyabrında başladılan proses Eldar Mahmudov üçün yaxşı heç nə vəd etmədiyi bəlli idi. Baş verənlərdən belə nəticəyə gəlmək olurdu ki, hakimiyyətin onunla bağlı perspektiv planları var və gerçəkləşməsi üçün Eldar Mahmudovun azadlıqda olması vacibdir. Məsələn, Eldar Mahmudovdan bəzi maliyyələrin geri qaytarılması istiqamətində danışıqlar aparılması haqda bilgilər vardı. Necə ki, başqaları ilə, eyni qaydada Eldar Mahmudovla da iş aparılırdı. Artıq həmin danışıqlar da, danışıqların mövzusu da həll olunub. Mümkündür ki, Eldar Mahmudov ondan tələb olunanlarla vidalaşıb və ya haradasa razılaşmayıb. İstənilən halda, prosesin nəticəsindən asılı olmayaraq Eldar Mahmudov görüntü xatirinə də olsa istintaqa çağırılmalı, məhkəmə qarşısına çıxarılmalı idi. Ona veriləcək ittihamlardan və barəsində çıxarılacaq hökmdən sonra hazırda Eldar Mahmudovun ətrafında gedən proseslərə daha dəqiq qiymət vermək mümkün olacaq. Hələlik isə bizlər Eldar Mahmudovun ətrafında olan general-mayorun onun üzünə qarşı ifadə verməsini görürük və məhkəmədəki çıxışlar onun həbsi üçün yetərlidir".

Qeyd edək ki, ləğv edilmiş MTN-in Situasiya Mərkəzinin rəis müavini vəzifəsində işləmiş Malik Mustafayevin intihar etməsi və onun qardaşına təzyiqlər edilməsi ilə bağlı həbsdə olan MTN-in Antiterror Mərkəzinin rəisi olmuş general-mayor Elçin Quliyev istintaq zamanı bir qədər fərqli ifadələr vermişdi.

Malik Mustafayev 2014-cü ildə işdən çıxarıldıqdan bir müddət sonra intihar etmişdi. Onun qardaşı Mətləb Mustafayev qanunsuz silah saxlamaqda təqsirli bilinərək həbs olunmuşdu. O, Cinayət Məcəlləsinin 228.1-ci (qanunsuz silah daşıma) maddəsi ilə təqsirli bilinərək 2 il müddətinə azadlıqdan məhrum edilmişdi. MTN ləğv edildikdən sonra 2016-cı ilin sonlarında azadlığa buraxılmışdı.

**E.Quliyev ibtidai istintaqa ifadələrində bildirmişdi ki, Malik Mustafayevi MTN-in Yevlax rayon şöbəsinin rəisi olan vaxtlardan, onun qardaşı Mətləb Mustafayevi isə həbs olunandan sonra tanıyıb**: "Malik Mustafayevin sonuncu xidməti vəzifəsi MTN-in Situasiya Mərkəzinin rəis müavini olub. Dəqiq tarixi xatırlamadığım vaxtda bir dəfə Mətləb Mustafayevlə söhbət etmişəm. Qardaşının MTN-də hörmətli şəxs olmasını deyərək, mənzilində aşkar olunmuş silahla bağlı məlumat əldə etməyə çalışdım. Bildiyimə görə, Malik Mustafayev də Mətləblə bu barədə söhbət etsə də, o, silahı haradan alması barədə məlumat verməyib. Mətləb Mustafayevlə söhbətimiz zamanı vəkil iştirak etməyib".

**E.Quliyevin sözlərinə görə, Mətləb Mustafayevdə silah olması, onun İranda yaşayan Rza, Hüseyn adlı şəxslər və qeyriləri ilə əlaqəsi olması barədə 10 sentyabr 2014-cü ildə MTN-in İstintaq İdarəsinə məktubla məlumat verib:** "Təxminən bir həftədən sonra yenidən əməliyyat məlumatı əsasında Mətləb Mustafayevin qohumlarında silah olması barədə istintaq idarəsinə məlumat vermişəm. Lakin Mətləb Mustafayevin qohumlarının evindəki axtarışlar zamanı silah aşkar olunmayıb. Mətləb Mustafayevin mənzilində axtarış zamanı İlqar Əliyev və əməkdaşlarımızın orada iştirak etməsini təmin etmişəm. Mətləb Mustafayev isə MTN-in istintaq təcridxanasında saxlanılan zaman ola bilərdi ki, Antiterror Mərkəzinin əməkdaşları ilə söhbət etsin. Mətləb Mustafayevlə əsas işi tapşırığım əsasında İlqar Əliyev qurub. Mətləb Mustafayev həbs ediləndən sonra onunla görüşmüşəm, silahı haradan əldə etməsi ilə bağlı söhbətimiz olub. Mətləb Mustafayevdən evində aşkar olunmuş silahı haradan əldə etməsi ilə maraqlandım. Həmin söhbət zamanı onunla istintaqla bağlı deyil, əməliyyatla bağlı söhbət etdiyim üçün vəkilinin iştirakını təmin etməmişəm".

**Göründüyü kimi, ibtidai istintaqa ifadəsində general-mayor keçmiş şefini satmayıb, onun əleyhinə ifadə verməyib. İndi isə situasiya dəyişib, Mahmudovu özünün birbaşa tabeçiliyində olanların ifadələri ilə həbs göndərirlər. Belə də o uzaqdan-yaxından tanışlığı olan istintaqçılara, onların rəhbərlərinə də hər hansı bir irad bildirə bilməyəcək. Danışacaq və ona deyəcəklər ki, əlinin altında olan şəxs əleyhinə ifadə verirsə, biz kimik?**

❑ E.MƏMMƏDƏLİYEV



# Prokuror avtobus sürücüsünü döyən general oğluna 6 il cəza istədi

## 8 dayanacaq boyunca avtobusu təqib edib, sonra sürücünü döyən "qəhrəmana" kömək edən dostlarına isə 3,6 il həbs tələb olundu

**Avtobus sürücüsünü döyən general oğlunun məhkəməsi keçirilib.**

Musavat.com xəbər verir ki, Bakıda xuliqanlıq hərəkəti etməkdə təqsirləndirilən Rüstəm Orucovun cinayət işi üzrə məhkəmə iclası baş tutub.

Prosesdə dövlət ittihamçısı çıxış edib. Prokuror general oğlunun 6 il, digər iki nəfərin isə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

Bildirək ki, hadisə zamanı Pərviz və Kənan adlı şəxslər də general oğlunun yanında olub. Onlar Orucovun dostlarıdır və hadisə zamanı onun avtomobilində olublar. Hər ikisi barəsində polis nəzarətinə verilmə qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun yaydığı rəsmi məlumata əsasən, bu il iyulun 3-də R.Orucov sürücülük hüququndan məhrum olunmasına baxmayaraq, idarə etdiyi "BMW" markalı 10-OG-300 dövlət nömrə nişanlı avtomobillə yol hərəkəti qaydalarını pozduğuna görə, ona əsaslı irad bildirmiş sürücü Sənan Səmədovun idarə etdiyi marşrut avtobusunu 8 dayanacaq təqib edərək sərnişinlərin narahatçılığına səbəb olub.

O, insanlarda vahiməyə səbəb olub, vətəndaşların gözü qarşısında bir qrup şəxslə həmin sürücüyə xəsarətlər yetirərək xuliqanlıq edib.

Məlumata görə R.Orucov piyadanın ölümünə səbəb olan yol-nəqliyyat hadisəsi törədib hadisə yerindən qaçdığına görə, hələ 2014-cü ildə 4 il müddətinə azadlıqdan məhrum olub, 2016-cı ildə isə şərti olaraq vaxtından əvvəl azad edilib. Yuxarıda qeyd olunmuş xuliqanlıq hadisəsi də məhz onun şərti azadlıqda olduğu dövrdə baş verib.

Faktla bağlı 2017-ci il 4 iyul tarixində Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən xuliqanlıq) maddəsi ilə cinayət işi başlanıb.

R.Orucov həmin maddə ilə ittiham olunaraq barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

**Bu hadisədən sonra R.Orucovun atası general-mayor Novruzəli Orucov Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin həqiqi hərbi xidmətə çağırış üzrə müavini vəzifəsindən azad edilib.**

❑ İlkin MURADOV

# “Əsas prezidentliyə namizədlərin sayı deyil”

## Partiya sədrləri 2018 seçkilərində prioritet saydıqları məsələlərdən danışdılar

**2018-ci il prezident seçkilərində namizədlərin sayının çox, yoxsa az olacağı barədə müzakirələr gedir. Bir çox siyasətçilər namizədlərin sayının bundan əvvəlki seçkidəkindən çox olmayacağını proqnozlaşdırırlar. Bəs namizədlərin çox, yoxsa az olması siyasi partiyalara, əsasən də seçkilərdə iştirak edəcək siyasətçilərə sərf edir?**

**KXCP sədri Mirmahmud Mirəlioğlu** bildirdi ki, seçkilərdə namizədlərin çoxluğu və y azlığı rol oynamır, seçkinin demokratik keçirilməsi rol oynayır: “Seçki demokratik keçirilmədikdə namizədlərin sayı istər 2-3 nəfər, istər onlarla sayda olsun heç bir rol oynamır. Əsas məsələ demokratik seçki mühitinin təmin olunmasıdır. Seçki demokratik keçiriləndə namizədlərin sayının nə qədər çox olmasından asılı olmayaraq seçicilər öz seçimlərini edib prezidentlərini seçirlər”.

**M.Mirəlioğlu növbəti seçkidə namizəd kimi iştirak edib-etməyəcəyinin gələn il rəsmən bəlli olacağını açıqladı:** “Gələn il çox önəmli bir ildir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, Əbülfəz Elçibəyin 80 illiyidir. KXCP üçün gələn ilin daha bir önəmli tərəfi var ki, qurultayımız olacaq. Qurultayda yəqin ki, prezident seçkisinə münasibət bildiriləcək”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, namizədlərin sayının çox və az olacağı ölkədə seçki prosesindən, seçki dinamikasının səviyyəsindən asılı olacaq. Bu gün üçün görünən odur ki, namizədlərin sayı çox olmayacaq. Namizədlərin sayının çox və ya az olması həlledici əhəmiyyət daşımır: “Əsas məsələ seçkinin necə keçirilməsidir. Namizədlərin sayının çoxluğu və ya azlığı demokratik seçkinin göstəricisi deyil. Namizədlərin sayının nə qədər olmasından asılı olmayaraq seçici öz seçimini edir, seçici məcburiyyət qarşısında qalıb kiməsə səs vermir. Seçici xoşu gəlməyən namizəd olmayanda heç seçkiyə getmir. Ona görə də namizədin sayının az və ya çox olacağı yox, seçkinin demokratik olub-olmayacağı dartışılmalıdır”.

İ.Ağazadə namizədliyinin verilib-verilməyəcəyi ilə qərarın Ümid Partiyasının gələn il keçiriləcək qurultayında qəbul ediləcəyini də dedi.

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, prezident seçkisində opponentlərin sayı onun maraqlandıran əsas məsələ deyil: “Fikrimcə, seçkinin legitimliyini və dürüstlüyünü təmin edəcək şərtlərin olması önəmlidir. Seçkini bir proses olaraq, onun nəticələrini şərtləndirəcək şərait mahiyyət kəsb edir. Yəni, qanunverici bazanın optimallaşdırılması, seçki mühitinin demokratikliyi, büdcədən maliyyələşən kommunikasiya imkanlarının-TV-lərin, radio, çap mətbuatının bərabər istifadə edilməsi, kütləvi tədbir-mitinq, görüş keçirilməsinin bərabər şərtləri və sair bunun kimi amillər vacibdir. Bu kimi məsələlər gələcəkdə nəticələrə təsir göstərəcək bəhanəyə çevrilməməlidir. Praktikadan çıxış edərək deməliyəm ki, süni kampaniya korpusu da formalaşdırılmamalıdır. Belə sünilik həm Prezident institutunu, həm seçki prosesini, həm də bütövlükdə dövləti nüfuzdan salır. Belə olmaması üçün namizədlərin qeydiyyat meyarları obyektiv olmalıdır. Daha bir məsələ süni olaraq ideoloji tezislərə, nəsil və region mənsubiyyətinə görə namizədlər arasında seçim aparılmamalıdır. Əgər bu standartlar gözlənilsə, namizəd sayı və tərkibi maraq kəsb etməyəcək. Bizə dövlət olaraq kənar təzyiqi azaltmaq üçün etimadlı proses və legitim seçki nəticələri lazımdır”.




**AĞ Partiyanın sədri Tural Abbaslı** isə qeyd etdi ki, demokratik cəmiyyətlərdə namizədlərin sayı nə qədər çox olarsa və rəqabət nə qədər güclü olarsa bir o qədər yaxşıdır. Yəni seçicilərin seçim imkanlarının geniş olması daha məqbul haldır: “Çünki namizədlər az olduqda seçicilər ya prosesdə iştirak etmir, ya da iki pisdən daha az pisi seçmək kimi bir fakt qarşısında qalır. Bu məsələyə mənim istəyim kontekstində baxanda isə düşünürəm ki, mənim üçün bu amilin heç bir fərqi yoxdur. Çünki, əgər namizəd öz potensialını bilirsə və bu real potensiala uyğun qərar verirsə namizədlərin sayının heç bir önəmi qalmır. Mən gələcək namizəd kimi özümə və gənc, enerjili və ən əsası siyasi baxımdan təmiz komandama güvənirəm. Əminəm ki, hər şey bizim planlarımıza uyğun keçsə biz həm AĞ partiya olaraq, həm də ayrı-ayrı gənc siyasi fiqurlar kimi bu prosesdən uduşla çıxacağıq. Hakimiyyət neçə namizəd istəsə MSK da o qədər namizədi qeydə alacaq. Təəssüf ki, bu məsələlər nə bizim nə də xalqın iradəsindən asılıdır. Biz AĞ partiya olaraq qanunvericiliklə edə biləcəyimiz işlərin planlaması və bu işlərə hazırlıqlarla məşğuluq”.

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət partiyalarının YAP-dan umacağı var imiş

## 25 illik yubileyə təbriki bu səbəbdən ünvanlamayıblar









**Başa çatmaq üzrə olan noyabr ayı hakim Yeni Azərbaycan Partiyası üçün yubiley ayı kimi keçdi. 1992-ci ilin noyabrında yaradılan və dövlət qeydiyyatına alınan YAP ötən həftə 25 illik yubileyini təntənəli qeyd elədi. Hakim partiyanın ünvanına parlamentdəki partiyalardan və ayrı-ayrı qurumlardan, şəxslərdən yubiley təbrikləri ünvanladı. Yubiley mərasiminə də müxtəlif siyasi partiyalar dəvət edilmişdilər. Parlamentdə olmayan partiyalar gəldikdə dəqiqləşdirmək üçün araşdırma apardıq.**

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, YAP-dan ona yubiley mərasiminə dəvət gəlməyib və YAP-a təbrik də ünvanlamayıb: “Təəssüf ki, siyasi partiyalar arasında belə bir ənənə yoxdur. Belə ənənələri adətən hakimiyyət formalaşdırır. Çox təəssüf ki, hakim partiya bu cür ənənələri formalaşdırmaq istəmir. Bu ənənə yaxşı ənənədir və demokratik ölkələrin hamısında var. Belə ənənələr münasibətləri yumşaldır, münasibətlərə isti çalarlar gətirir. Təəssüf ki, biz bunu hələlik edə bilmirik”.

**KXCP sədri Mirmahmud Mirəlioğlu** da təbrik ünvanlamadıqlarını və YAP-dan da dəvət edilmədiklərini bildirdi: “Burada bir çox məsələlər rol oynayır. YAP-ın yubileyində Xalq Cəbhəsi hakimiyyəti dövrünə xüsusi eyhamlar olundu, ittihamlar irəli sürüldü. Amma nəzərə alınmayan bir cəhət odu ki, Yeni Azərbaycan Partiyası məhz Elçibəy iqtidarının zamanında dövlət qeydiyyatına alınıb. Demokratiya, müxalifətə dözümlülük olmasaydı o partiya qeydə alınmazdı. Biz ayrı-ayrı dövrlərdə, təşkilatımızın yubileyində aidiyyəti adamlara dəvətlər göndəririk. Bizi dəvət edib-etməməkləri də hər kəsin haqqıdır. Təbrik məsələsinə gəldikdə, Azərbaycanda belə bir ənənə yoxdur”.

**VİP sədri Əli Əliyev** isə təəssüflə qeyd etdi ki, YAP-ın yürütdüyü siyasət və qarşılıqlı münasibətlər səbəbindən nəzakət qaydalarına aid olan belə məsələlərə mövqe bildirmək olmur: “Məncə YAP-da kimsə bizdən təbrik də gözləmir. Müxalifəti ”ünsür" adlandırırlarsa, əlbəttə ki, təbrik də gözləmirlər. Təbrikləşmək kimi ənənələri öncə hakimiyyətdə olan partiya yaratmalıdır. YAP-a bunu arzu edərdim".

**AĞ Partiyanın sədri Tural Abbaslı** isə bildirdi ki, nə YAP-dan dəvət alıblar, nə də YAP-ın yubleyinə təbrik məktubu göndərməyiblər: “Ancaq buna səbəb bizim AĞ partiya olaraq YAP-ı düşmən kimi görməyimizdə deyil. Biz ümumiyyətlə siyasətdə və siyasi leksikonda ”düşmən və düşmənçilik" ifadələrinin istifadəsinin qəti əleyhinəyik. Biz Azərbaycan siyasi səhnəsindəki bütün qeyri-siyasi partiyalara ya rəqib, ya da müttəfiq partiyalar kimi baxırıq. Siyasəti şəxsi düşmənçilik qisas və qan davaları müstəvisinə çəkməyi xalqımızın, millətimizin gələcəyi üçün ziyanlı hesab edirik. Hakim partiyaya təbrik məktubu göndərməmək səbəbimiz sırf bu günə qədər dünya siyasətində qəbul olunmuş protokol və prosedur qaydalarına görədir. İlk olaraq onu bildirməliyəm ki, partiyalar arası normal münasibətlərin formalaşması və sağlam rəqabət mühitinin yaradılması iqtidar partiyası kimi YAP-ın üzərinə düşür. Yəni bu istiqamətdə ilk addımları onlar atmalıdır bu siyasətin gərəyidir. Əgər Azərbaycan cəmiyyətində barışıq və etimad mühitinin formalaşmasını istəyirlərsə bu addımlar ilk atmalı olduqları addımlardır. Biz öz növbəmizdə zamanında AĞ partiyanın Qurultayına digər partiyalar kimi YAP-ı da dəvət etmişdik, ancaq, təəssüf olsun ki, onlar bizim dəvəti qəbul edib iştirak etmədilər. Bundan sonra bizim yenidən hansısa qarşılıqsız addım atmağımız yersiz olar. Yenə də qeyd edirəm biz partiyalararası münasibətlərin normallaşmasının tərəfdarıyıq. Bu məsələlərdə ən azından qardaş Türkiyədəki siyasi partiyalar arasındakı münasibətləri nümunə kimi götürməliyik".

**AMİP katibi Elşən Mustafayev** də bildirdi ki, rəsmi olaraq partiya adından YAP- təbrik göndərilməyib: “Təəssüf ki, 2000-ci ildən sonra hakimiyyət partiyası ilə müxalifət partiyalarının böyük əksəriyyəti bir-birlərini nə bayramlarda, nə ildönümlərində nə də yubileylərində təbrik etməyiblər. Belə olması artıq adiləşib. Necə ki, bu il iyul ayının 2 də müstəqillik əldə olunduqdan sonra ölkədə ilk yaranmış siyasi partiya olaraq AMİP-in də 25 illik yubileyi oldu və AMİP-ə də hakimiyyət partiyası tərəfindən hər hansı təbrik gəlmədi. Əgər biz ölkədə siyasi partiyalar arasında normal münasibətlərin olmasını istəyiriksə bu hal yaxşı hal deyil və aradan qaldırılmalıdır. Düşünürəm ki, gələcəkdə bu addım hakimiyyətdə olan partiya tərəfindən atılarsa müsbət jest kimi qiymətləndirilər və sonradan siyasi partiyaların münasibətlərində bir ənənə halını alar”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017

# Hamı sadə toydan danışır, ancaq heç kim nümunə göstərmir...

**Məhərrəmlik ayı bitdi və dəbdəbəli toylar yenə də gündəmi zəbt etməyə başladı. Toyun məqsədi orada yığılan pulun yeni ailə həyatı quran gənclərə yardım edilməsidir. Ancaq həddən ziyadə yeməklər və dəbdəbəyə görə gənclər nəinki yığılan puldan bir fayda görür, hətta restoranlara borclu da qalırlar. Restoranlarda hazır menyular təklif olunur. Bu menyudan yer alan hansısa yeməyi çıxartsanız belə bunun menyunun puluna heç bir təsiri olmayacaq. Tək-tək restoranlar var ki, onlar yalnız stolun pulunu alır, menyunu və ərzaqları toy evinin almasına razılıq verir. Zaman-zaman ictimaiyyətdə tanınan simalar həddən artıq dəbdəbəli toyları tənqid edir və buna son qoyulmasını istəyirlər. Ancaq həmin simaların bəziləri öz övladlarının toyunu da dəbdəbəli edir, heç bir nümunə ortaya qoymurlar.**

*Maraqlıdır, cəmiyyətdə müəyyən mövqeyə sahib olan şəxslər öz övladının toyunu təbliğ etdiyi bir cür yeməklə və sadə şənliklə keçirərmi?*

Qeyd edək ki, bu günlərdə **deputat Fazil Mustafa** bu barədə “facebook” hesabında yazaraq aşırı dəbdəbəli, 15-16 cür keyfiyyətsiz yeməkləri olan toyları tənqid etmişdi. F.Mustafa “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, burada alternativlərin yaranmamasından söhbət gedir. Bu Azərbaycan cəmiyyətinin müəyyən dərəcədə xəstəliyidir, vəhşi adətlərə aludəliyidir. Şadlıq evləri sistemi elə qurulub ki, alternativlər olmayanda hətta fərqli düşüncədə olan insanlar olanda belə rahatlıqla bu məclislərini keçirə bilmirlər. Muğam məclisi kimi 2-3 saatlıq toy ənənəsi etmək mümkün olmur. Çünki sən öz seçiminə malik deyilsən. Tutaq ki, sən bir növ yemək istəyirsənsə, 5 növ yemək təklif edirlər və bunsuz razılıq vermirlər. Seçim alternativi olsa, insanlar bunu daha çox həyata keçirərlər. Toylarda biz şadlıq evi mafiyasının girovuna çevrilmişik. Əksər məmurların özünün şadlıq evləri olduğuna görə bu sistemi də dəyişmək işlərinə yaramır. Ona görə də belə bir vəziyyət olduqca düşündürücü və narahatedici vəziyyətdir. Hesab edirəm ki, bu məsələlərdə biz ən azı gücümüz çatan səviyyədə maarifçilik işini gücləndirməliyik. Bu məsələlər nə ağlamalı bir ağlamaqdır, nə də şənlənməli bir şənlənməkdir. Xaricdən gətirdiyin müğənniyə 50-100 min ödəməkdən böyük bir düşüncəsizlik ola bilərmi?! Toyda nə oxuyanın səsini eşidə bilirsən, nə oynayanların nəyə oynadığını başa düşürsən. Mən bu vəziyyətin dəyişməsini yaxın zamanlarda gözləmirəm, nümunələrlə də bunun edilməsinin imkanı yoxdur. Yəni bu insanları hara dəvət edəsən? Bu profildə məclis yerləri olmalıdır və yaxud da restoranlarla bunu danışaraq etmək daha məqsədəuyğundur. Həm də toya salınan pul da yeni evlənənlərin xeyrinə yox, zərərinə gedir. Yeni evlənənlərə kömək etmək istəyirsənsə, bir var ki, 300 manat salasan, onun 200-ü gedə şadlıq evinə Bir də var ki, 200 manat verəsən yeni evlənənlərə onlar da ailələrinin maddi təməlini normal formalaşdıra bilsin. Problemin kökü budur".



**Fazil Mustafa:** “Bu cəmiyyətin müəyyən dərəcədə xəstəliyi, vəhşi adətlərə aludəliyidir”



**İqbal Ağazadə:** “Bu məsələlər ictimai müzakirə predmeti ola bilməz”



**Natiq Cəfərli:** “Yaxşı nümunələr ortaya qoyulduqca vətəndaşlar da, o nümunələrdən nəticə çıxararaq hərəkət edəcək”

**Ümid Partiyasının sədri İqbal Ağazadə** isə bildirdi ki, bu məsələlər ictimai müzakirə predmeti ola bilməz və kim necə istəyirsə, o cür də toy edə bilər: “Nümunəvi toy resepti yoxdur. Hər kəsin toy üçün öz resepti var. Buna görə də hər kəs öz reseptinə, arzusuna, cibinə uyğun toy edir. Kim cibinə uyğun etmir, başından yuxarı tullanmaq istəyirsə, bu onların problemidir. Bu məsələdə nizam-intizamı olmamalıdır. İnsanların ürəyi istədiyi kimi olacaq toy arzularına şablon nəsə salmaq nə dərəcədə doğrudur və məntiqlidir?! Kim necə istəyir elə də edər. Kiminsə borclu qalmasının, toyda girov saxlanılmasının camaata, mətbuata nə dəxili var? Düşünürəm ki, bu məsələlər ictimai müzakirə predmeti ola bilməz. Bu, adamların arzu istəkləridir, planladığı şəxsi işdir. Öz çevrəsini, yaxınlarını çağırıb arzusunu reallaşdırır. Borclu qalacaq, sonra ödəyəcək və ya əvvəlcədən ödəyəcək, ya heç borclu qalmayacaq, yemək tökülüb qalacaq bu onların problemidir. Mənim, cəmiyyətin heç jurnalistlərin də problemi deyil”.

**İqtisadçı-ekspert Natiq Cəfərli** üç oğlu olduğunu və gələcəkdə toylarını onların arzularına uyğun şəkildə həyata keçirəcəyini dedi: “İnzibati qərarlarla, müdaxilələrlə, hər hansısa bir qadağalarla bu məsələni həll etmək mümkün deyil. Bu tipli situasiyanın yaranması üçün ölkədə nüfuzlu olan gənclər, elita sayıla biləcək ziyalılar, hətta siyasilər, hökumət üzvləri bir nümunə ortaya qoymalıdırlar. Əgər hər hansısa bir məmur öz övladına yüz minlərlə manata, hətta milyonlara başa gələn toylar edirsə, sadə vətəndaş da təbii ki, örnək kimi ya ziyalısının, ya məmurunun davranış qaydalarını götürür. Burada artıq şəxsi nümunələr çox önəmlidir. Türkiyədə bununla bağlı ən rəsmi, varlı, elita insanlar belə elə sadə toy edirlər ki, bu digər insanlara bir örnək olur. Bu örnək də cəmiyyətdə yayılır. Azərbaycanda da bu cür örnəklər yaranmalıdır. İnsanlar inandığı, hörmət etdiyi, ziyalı saydığı insanlara bu məsələlərlə bağlı yol göstərməlidirlər. Mən 3 oğul övladım var. Bu günə qədər üçündə də kiçik toy dediyimiz mərasimi keçirməmişəm. Ancaq 5-6 nəfər yaxın dostlarla bu hadisəni qeyd etmişik. Bunu hansısa restoran, şadlıq evində etməmişəm. Mənim övladlarım böyüyəndən sonra özlərinin istədiyi kimi ailə qurmalarına kənardan heç bir müdaxilə etmədən, ancaq dəstək verərək özlərinin istədiyi kimi bir mərasim keçirməyə mən hazıram. Ona görə də cəmiyyətdə müəyyən söz sahibi ola biləcək, örnək ola biləcək insanlar mütləq yaxşı nümunələr ortaya qoymalıdırlar. Yaxşı nümunələr ortaya qoyulduqca vətəndaşlar da o nümunələrdən nəticə çıxararaq hərəkət edəcəklər. Mən buna əminəm. Ona görə də restoranlara və ya əhaliyə hansısa qadağan tətbiq etməkdənsə, televiziyalarda bununla bağlı təşviq verilişləri təşkil etməklə, insanları bilgiləndirməklə, yaxşı nümunələr ortaya qoymaqla bu problemi həll etmək mümkündür. Doğrudan da artıq ölkəmizdə toy da, yas mərasimləri də həddən artıq bayağı keçirilir və çoxlu xərc tələb olunur. əgər toya dəvətnamə alan insan 15 il əvvəl sevinirdisə, indi fikrə qərq olurlar ki, toyun pulunu haradansa, tapıb vermək lazım olacaq. Bu ənənələr örnəklər vasitəsilə dəyişməlidir”.

❑ **Günel MANAFLI**

# “Sona bülbüllər”dən “Ayə, harya gedirsən”ə “inkişaf”



**Xalid KAZIMLI**

**Zövqə görə mübahisə etməzlər. Məşhur ifadədir və dürüst kəlamdır. Biri Rəşid Behbudovun ifasını sevər, biri Qədir Rüstəmovun, o biri Akif İslamzadənin - qarışa bilməzsən.**

Elə adam da var, Ağadadaş Ağayevdən Demis Russosa, Luçano Pavarottiyə, hətta təzə çıxanlardan Castin Biberə qədər müxtəlif janrlarda oxuyan musiqiçilərin ifasını eyni zamanda sevər. Nə etmək olar, adamın musiqi sevgisinin hüdudları bu qədər genişdir.

Adam da var, küçədə getdiyi yerdə Qədir Rüstəmovun radiodan gələn səsini eşidər, 7 dəqiqə ərzində mıxlanıb yerində qalar, “Sona bülbüllər” bitənə qədər onu dinləyər və sonra yoluna davam edər. Eləsini də görmüşəm.

Hətta beləsini də görmüşəm. 5-6 il öncəydi. Səhər ertəydi. Kompüterin pleyerində “Sona bülbüllər”ə qulaq asırdım. Redaksiyanın telefonuna zəng gəldi, dəstəyi qaldırdım, “Azadlıq” radiosunda çalışan həmkarımız Esmira Cavadovaydı. O, əməkdaşımız Elşən Balaxanılı ilə calaşdırılmasını istədi. Calaşdırdım. İki dəqiqədən sonra yenə zəng gəldi. Dəstəyi götürdüm. Yenə Esmiraydı. Dedim, bacı, danışa bilmədinmi, sizi calaşdırdım axı. Esmira Cavadova dedi, yox, Elşənlə danışdım, amma xahiş edirəm telefonun dəstəyini kompüterə yaxın tut, Qədirə qulaq asım, səsini eşitdim, məni götürüb Ağdama apardı.

Budur musiqi. Budur sənətin, sənətkarın gücü, qüdrəti. Onun səsini eşidirsən və birdən-birə başqa bir aləmə düşürsən, reinkarnasiya kimi bir şey olur, orda bir az da qalmaq istəyirsən.

Yaşlı nəslin qaydasıdır, yeni çıxan musiqiçiləri qəbul etmirlər. Əslində bu, bütün yaradıcılıq sahələrində belədir, köhnə jurnalistlər də yeniləri, əski yazıçılar da yeni yazıçıları, onların stillərini qəbul edə bilmirlər. Bu, psixoloji məsələdir, obyektiv səbəbləri də var, subyektiv səbəbləri də.

1982-ci ildə televiziyanın efirindən düşməyən müğənnilər təzə-təzə səsi gələn Ağadadaş Ağayevin oxumasını qəbul etmirdilər, efirdə, qəzet-jurnallarda onun əleyhinə təbliğat aparır, aşağılayırdılar. Amma bir il keçdi, Ağadadş Ağayev daha ciddi mahnılarla TV ekranının bəzəyinə çevrildi, xeyli müddət hətta ölkənin ən populyar, ən sevilən müğənnisi oldu.

Faiq Ağayevlə bağlı da mənzər qəbuletməmə və özünü qəbuletdirmə prosedurları olmuşdu.

Ancaq hiss olunur ki, bu trend də inkişaf edərək absurda dirənib. İndi adından söz etdirmək istəyən gənclər nəsə absurd bir ifa tərzi tapır, sosial şəbəkələr vasitəsilə populyarlaşa bilirlər. Yüz minlərlə insan onların bu fərqli, həyatın dibindən gələn, klassik sənətə zidd olan “əsər”lərini tirajlayır. Bir günün içində populyarlıq zirvələrə çıxır.

Dünən gecə elə bir video yayılıb, bu gün ölkənin virtual məkanında hamı ondan danışır. Hansısa TV-nin studiyasında qucağına gitara götürmüş bir gənc sırf əyalət ləhcəsi ilə guya nəsə oxuyur, eləcə “ayə, harya gedisən, ayə” deyə bağırır.

İndi bu ifadırmı? Bu sənətdirmi?

Razıyam, fərqli bir şeydir. İndiyə qədər belə şey olmayıb. Amma bu cür ifadan zövq almaq mümkündürmü?

Çoxları deyir, mümkün deyil, rəzalətdir. Bəziləri isə bu ifanı öz zövqlərinə uyğun qəbul edir, Vüsal adlı gəncin ifasında nəsə bir fəlsəfə, həzinlik, məna axtarırlar və... tapırlar.

Gördüyünüz kimi, yenə gəldik çıxdıq “zövqə görə mübahisə etməzlər” məsələsinə.

Mübahisə etmək istəmirəm. Bəlkə biri bülbül cəh-cəhindən zövq alır, biri qağayı qiyyəsindən. Hərəsinin öz gözəlliyi var. Hətta ola bilər ki, kimsə at kişnərtisində, çaqqal vaqqıltısında bir fəlsəfi məna, dərinlik, çağırış sezir, bilmirəm. Amma eşşək anqırtısının xüsusi bir həzinliyi olduğuna, insanı duyğusal ovqata kökləyə biləcəyinə inanmıram.

Dediyim odur ki, biz Ennio Marikoninun, Eldar Mansurovun bütün dünyada sevilən, qəbul edilən lirik-sentimental melodiyalarının səviyyəsindən “ayə, harya gedisən, ayə” səviyyəsinə enmişiksə, yüksək musiqi zövqündən danışmalı deyilik. Həyatın dibində yaranan, hər kəsin ortaya qoya biləcəyi çığırtılar, bağırtılar sənət deyil.

Bu cür bağırtılara görə heç vaxt redaksiyaya zəng gəlməz, adama deməzlər ki, o səs məni 30 il əvvələ apardı, icazə verin, ona sonadək qulaq asım.

**Amma kim bilir, bəlkə bu gün bu “musiqi”ni dinləyən yeniyetmə onu 30 ildən sonra bir daha dinləyəndə emosional ovqata köklənəcək, “hayıf keçən günlərdən” nostaljisinə qapılacaq və kövrələcək...**



# Təvazökar vətənpərvər

Zamin HACI
zaminhaci@gmail.com

**Bir Binəqədi sakini olaraq şanlı deputatımız, eramızdan öncədən bəri bizi deputatxanada təmsil edən hörmətli Madər müəllimi təbrik edirəm. Deyilənə görə, onun 70 yaşı tamam olacaqdır. Həmin doğum günü münasibətiylə dövlət rəhbərliyi Madər müəllimi hansısa ordenlə təltif edibdir. Dünən mən bir saytda bu xəbəri oxudum, ancaq bir az gülməyim tutdu, çünki saytın əməkdaşları xəbərin içində Madər müəllimin əvəzinə... Qırğızıstanın təzə prezidenti Sooronbay Jeenbekovun şəklini qoymuşdular.**

Əlbəttə, deputat hər zaman öz sakinlərinin üzünü güldürməyə, sevindirməyə çalışmalıdır, bu mənada təşəkkür edirik. Eyni zamanda saytın əməkdaşlarını da qınamıram, çünki Madər müəllimin fotosu bir az çətin tapılan məsələdir. Madər müəllim dünya tarixində yeganə, madar şəxsdir ki, yüz illərdir deputat seçkilərinə divara, lövhəyə şəkil vurmadan, seçicilərlə görüşmədən qatılır. Yəni, demək istəyir elə bülletendə adım bəsdir, başqa şeylər nəyinizə lazımdır, onsuz məsələ aydındır. Hətta bir seçkidə Madər müəllim təvazökarlıq edib adını da bülletenə yazdırmadı, ancaq yenə millət ona səs verdi. Bəlkə də o, bu üsulla Fransa Senatına, Polşa Seyminə, Rusiya Dumasına da üzv olubdur, ancaq bizi sevməyən qüvvələr nəticələri tanımayıbdır.

Doğrudan da hər seçkidə ərazilər mənasız kağızlarla xeyli çirklənir, JEK, bələdiyyə əməkdaşları, süpürgəçilər xeyli əziyyət çəkirlər. Bu mənada hörmətli deputatımızı ağacların dostu, meşələrin qardaşı, Qrinpisin xoşməramlı səfiri adlandırsaq yanılmarıq.

Baxış bucağından, yanaşmadan çox şey asılıdır. Bizim öz yolumuz, şəxsi demokratik prinsiplərimiz vardır və Qərb standartlarını kor-koranə tətbiq edə bilmərik. Misal üçün, baş nazirin birinci dərəcəli müavini Əli müəllim haçansa demişdi ki, əsgərliyə getməyən kişilərə qız verməyin, qoy subay ölsünlər, kökləri kəsilsin, bizə vətənpərvertlik lazımdır, ya Qarabağ, ya ölüm və sairə. İndi isə onun nəvəsinin məhkəməsi açılıb, cavan oğlanın əsgərlikdə olmadığı ortaya çıxıbdır.

Yeri gəlmişkən, nəvə hardasa 3-4 adamın ölməsi, ağır yaralanması ilə nəticələnən yol qəzası törətməkdə suçlanır. Bu söhbət təzə açılanda Əli müəllimin adamları mətbuata bahalı maşınları gəncin öz puluyla aldığını deyirdilər. Şəxsi biznesi varmış və sairə. İndi isə məhkəmə anketində gənc həm əsgərlikdə olmadığını, həm də işləmədiyini açıqlayıbdır. Bəs biznes hara getdi? Görünür bizim ölkə işsizlərə "Gəlinvaqen" maşını verəcək qədər inkişaf, tərəqqi tapıbdır. Halal olsun. İsveçrə işsizlərə aylıq maaş kəsmək haqda müzakirə açmışdı, yadıma gəlir. Ancaq biz maşın veririk, bir adam balası bundan yazmır dünya mətbuatında. Çünki biz müsəlmanıq, bizim inkişafımızı istəmirlər. Eybi yoxdur, qoy Məsut Özil "Barselona"ya keçsin...

Qayıdaq əsgərlik məsələsinə. Hazırda bəzi jurnalist qırıqları (ümid edək Əflatun müəllim onları tezliklə reket siyahısına salıb Hindistanda Qabbarsinqhin türməsinə ezam eləsin) baş nazirin müavininin həmin o əsgərlik söhbətini sitat gətirirlər, deyirlər, əsgərlik kişilik məktəbi idisə, niyə öz nəvəni də göndərməmisən orda oxusun. Əslində əsgərliyin kişilik məktəbi olması da müəyyən qədər şişirdilmiş söhbətdir, bütün xalqlarda elitaların yetim-yesirlərə bir növ "tırka" vermək, onları bir-birinə qırdırıb pul qazanmaq üsuludur, ancaq bu günkü temamız ayrıdır.

Məsələ ondadır ki, sən əsgərlik, kişilik məktəbi deyəndə nəyi nəzərdə tutursan. Adam var, hərbi xidmətini, vətənə borcunu Bakıda maşın ötüşdürməklə də ödəyə bilər. Xəlil Rzanın bir şeirində deyilən kimi, kainat bir cəbhədir, bunun çoxlu səngərləri vardır, hərə bir yanda vuruşur. Sən hardan bilirsən, bəlkə elə həmin bəd gündə Əli müəllimin nəvəsi vətənə xidmət üçün tələsirdi, şəhərin mərkəzində hansısa alman zabitiylə (misal üçün) görüşü olacaqdı? Bəlkə o Dronqodur, kəşfiyyatçıdır?

**Ümid edirəm, Əli müəllim bu cızmaqarını oxuyub gələn seçkilərdə mənim Madər müəllimin yerinə şəkilsiz namizəd olmağıma yardım edəcəkdir. Vətənə canımız qurban.**

# Tarixi təhrif edən ermənilərin vandalizmi davam edir

**Azərbaycan dövləti və xalqı artıq bununla neçənci faktdır ki, Dağlıq Qarabağ, işğal məsələsində vasitəçi dövlətlərin, konkret olaraq, Fransanın ikili standart yanaşmasına şahidlik edir. Xəbər verdiyimiz kimi, Dağlıq Qarabağdakı separatçı qurumun cinayətkar başçısı, Azərbaycan həbsxanasının darıxdığı Bako Saakyan neçə gündür başının dəstəsi ilə Fransada görüşlər keçirir, ianə toplayır.**



## Düşmən Şuşanın simasını dəyişir - Qərbdə yığılan ianələr hesabına...

### Brüssel sammiti ərəfəsində erməni təxribatı: separatçı Bako Saakyan və dəstəsinin Avropada diləndiyi paralar həm də qədim şəhərimizin görkəmini dəyişdirməyə yönəldiləcək; işğalçı həm də xofdadır; **erməni politoloq:** "Müharibə yaxınlaşır..."

Təbii ki, separatçı tör-töküntülərə bu şəkildə qucaq açmaq, onların işğal rejimini möhkəmlətmək üçün üstəlik, ianə marafonu təşkil eləməsinə şərait yaratmaq Fransanın qərəzsiz vasitəçilik iddiası ilə bir araya sığmır. O da maraqlıdır ki, məsələ ilə bağlı rəsmi Bakı Fransaya rəsmi etiraz bildirsə də, səfir Azərbaycan XİN-ə çağırılsa da, rəsmi Parisdən faktiki, səs çıxmadı.

Beləcə, Krımın işğalına görə Rusiyaya qarşı tətbiq edilən sanksiyaların iştirakçısı olan Fransa dövləti Azərbaycan ərazilərində etnik təmizləmə həyata keçirmiş erməni işğalçı qüvvələrinə tam fərqli, isti münasibət bəsləməkdə davam edir. Yoxsa ki, "Bako Saakyan rəsmi səfərlə Fransaya gəlməyib, bu, özəl bir səyahətdir" izahı gerçəyi dəyişmir. Çünki Krımın, Abxaziya və ya Cənubi Osetiyanın separatçı liderlərinin Avropaya istənilən xarakterli səfəri çoxdan yasaqlanıb, nəinki onların gedib Avropada, Fransada sərbəst şəkildə "xeyriyyə marafonu" təşkil eləməsi. Təbii ki, rəsmi Paris "yaşıl işıq" yandırmasaydı, Saakyan Parisə gələ bilməzdi.

*****

Musavat.com erməni qaynağına istinadən xəbər verir ki, "Məhsuldar arsax" adlı "xeyriyyə dilənçiliyi" artıq başa çatıb. Məlumatlara görə, yığılan 12.5 milyon dollar həcmində ianə hər il üçün təsdiqlənən, işğal edilmiş Azərbaycan ərazilərində "miqyaslı strateji proqramların reallaşmasına" yönəldiləcək. Söhbət həm də Qarabağda "qazıntı işlərinin aparılması, yeni irriqasiya şəbəkəsinin inşası və Əsgəran və Şuşada günəş enerjisi sisteminin tətbiqi", habelə işğal rejimini möhkəmlətməyə yönəlik digər layihələrdən gedir.

Yəni faktiki surətdə əsas hədəf girovluqdakı Azərbaycan şəhərlərinin, xüsusən də Şuşanın və ətrafının milli simasını dəyişmək, Qarabağı erməniləşdirməkdir. Yeri gəlmişkən, bir ara erməni vandalları iranlı mütəxəssislərlə birgə Şuşanın baş məscidi - Gövhər Ağa Cümə məscidi ərazində (1768-ci ildə Qarabağ xanı İbrahim xanın göstərişi ilə inşa edilib) yenidənqurma adı ilə qazıntı işlərinə başlamışdılar. Yəqin ki, "səsi" sonra, işğal rejimi bitəndə çıxacaq.

Hərgah, bu da diqqətçəkəndir ki, ermənilərin Avropada, Qərbdə ianə toplanışı ilbəil zəifləyir. Məsələn, erməni mənbənin bildirdiyinə görə, ötən il indikindən çox - 15.4 milyon dollar ianə yığılıb. Yəni məbləğ hər halda, ildən-ilə azalır. Bu da böyük ehtimalla, onun təzahürüdür ki, işğal rejimi uzandıqca, böyük sülh anlaşması əlçatmaz olduqca erməni lobbisi qanunsuz quruma maliyyə yardımı göstərməkdən ehtiyatlanır.

*****

Doğrudan da, yaman uzandı bu işğal. Amma düşmən nahaq yerə arxayınlaşır, etnik təmizləmə apardığı işğal altındakı əraziləri "abadlaşdırır", "erməniləşdirir". Nə qədər ki, Azərbaycan dövləti və xalqı, ərazi bütövlüyü prinsipindən, müharibə hüququndan, ərazilərini zor gücünə azad eləmək haqqından imtina eləməyib və etməyə hazırlaşmır, torpaqlarımızda işğalçı qüvvələr rahatlıq tapa, ikinci saxta erməni dövləti bərqərar ola bilməyəcək.

Müharibə bitməyib. Hələ müharibənin birinci hissəsi bitib. "Gec olar, güc olar" deyiblər. Elə erməni politoloq Ayk Martirosyan da bunu etiraf edənlər sayıla bilər. Musavat.com-un məlumatına görə, 1 in.am nəşrinə müsahibəsində o, müharibənin yaxında olduğunu deyib.

**Sitat**: "Dağlıq Qarabağ problemi çoxdan dalandadır. Bu dalandan da o, üç halda çıxa bilər: Azərbaycanda ciddi ictimai və siyasi təlatüm və qarışıqlıq yarananda; eyni hal Ermənistanda yaşananda də və ya hakimiyyət dəyişikliyi baş verəndə; bir də sübhisiz ki, müharibə variantında. Əlbəttə ki, əgər hazırda ətrafında müzakirələr gedən Madrid-Kazan sənəsi üzrə hansısa "həll" tapılsa, o zaman böyük ehtimalla, Azərbaycanda da, Ermənistanda da təlatümlər baş qaldıracaq və müharibə bir neçə günün məsələsinə çevriləcək. Bu da problemin dalandan çıxması demək olacaq. Nəticə nə olacaq - bunu artıq müharibə göstərəcək. İstənilən halda, bu müharibə yaxınlaşır - "tapılmış kompromisli" həllə birgə və ya onsuz".

*****

Qayidaq ianə məsələsinə. Bako Saakyanın qanunsuz Avropa səyahəti həm də Avropa Birliyinin 24 noyabr Brüssel sammiti ərəfəsinə təsadüf eləməsi ilə də diqqət çəkir. Başqa sözlə, düşmən tərəf heç şübhəsiz mötəbər bir tədbir ərəfəsi erməni lobbisini və ermənilərin dostlarını hərəkətə gətirmək niyyəti güdüb. Yəni təbliğat və təxribat məsələsi.

**Hərçənd, Azərbaycan da boş oturmayıb. Xəbər verdiyimiz kimi, bu ərəfədə - noyabrın 20-21-də Bakının birbaşa moderatorluğu ilə Brüsseldə keçirilən və separatçılığa qarşı yeni beynəlxalq ictimai hərəkatın yaradılması ilə yadda qalan "Separatizmin beynəlxalq sülhə və təhlükəsizliyə yaratdığı təhdidlər" adlı Beynəlxalq Forum erməni təbliğat maşınına sanballı zərbə sayıla bilər. Bu zərbənin siyasi nəticəsi yəqin ki, sammitinin yekun bəyannaməsində əksini tapacaq.**

❑ **Siyasət şöbəsi**

**Rusiya Ali Məhkəməsi Rusiya Ədliyyə Nazirliyinin "Ümumrusiya Azərbaycan Konqresi" (ÜAK) ictimai təşkilatının nizamnaməsinin Rusiya qanunvericiliyinə uyğun olmamasını əsas gətirərək azərbaycanlıları birləşdirən qurumu ləğv etdi. Bununla bağlı hüquqi müstəvidə aparılan mübarizə də öz nəticəsini vermədiyi üçün yeni təşkilatın təsis olunması zərurəti ortaya çıxıb. Qeyd edək ki, bir müddət öncə ÜAK-ın prezidenti Fazil Qurbanov "Yeni Müsavat"a yeni təşkilatla bağlı yayılan söhbətlərə münasibət bildirərkən bunun mümkünlüyündən bəhs etmişdi.**

# ÜAK-ı əvəzləyəcək yeni təşkilat barədə ən son məlumatlar

## Fazil Qurbanov: "Lap Avropa Məhkəməsinə də şikayət etsək, deyəcəklər ki, ay qardaş, siz düzgün eləməmisiniz də..."

APA-nın Moskva müxbirinin əldə etdiyi məlumata görə, Rusiya Federasiyasının regionlarındakı Azərbaycan icmalarının rəhbərləri yeni təşkilatın yaradılması və ona liderlik etməsi üçün akademik Fazil Qurbanova müraciət ediblər. Müraciətdə qeyd olunub ki, regiondakı Azərbaycan icması nümayəndələri qüsursuz reputasiyaya, işinə xüsusi və professional yanaşan, fəal həyat mövqeyi ilə seçilən akademik Fazil Qurbanovun Rusiyadakı Azərbaycan diasporunun lideri olmalı olduğunu hesab edirlər. O da vurğulanıb ki, Rusiyada çoxlu sayda fərqli Azərbaycan diaspor təşkilatları olmasına baxmayaraq, Ümumrusiya Azərbaycan Konqresinin qeydiyyatının ləğv edilməsi bu istiqamətdə böyük boşluq yaradıb.

"Rusiya prezidenti Vladimir Putin və Azərbaycanın ümummilli lideri Heydər Əliyevin razılığı ilə yaradılan Ümumrusiya Azərbaycan Konqresi təəssüf ki, Rusiya Federasiyasının ictimai həyatında oynadığı aktiv rolu itirdi. Çoxlu səhvlər buraxıldı. Rusiyada indiki zamanda, yeni demokratik prinsiplərin və qanun aliliyinin hökm sürməyə başladığı bir dövrdə belə səhvlər ÜAK üçün ölümcül oldu" deyə, müraciətdə vurğulanıb.

Regiondakı Azərbaycan icmalarının rəhbərləri Fazil Qurbanovun fəaliyyətini qeyd edərək ondan Rusiyadakı həmvətənlərimizi birləşdirəcək yeni təşkilata rəhbərlik etməsini, eləcə də Azərbaycan icmasının Rusiya cəmiyyətində vacib və güclü qüvvəyə çevrilməsi üçün bütün şəraitin yaradılmasını xahiş ediblər. Məlumatda deyilir ki, müraciətə Rusiya Federasiyasının 16 respublikası, 8 əyaləti, 33 vilayəti, 3 muxtar vilayəti və Moskva və Sankt-Peterburq şəhərlərindəki Azərbaycan icmalarının rəhbərləri imza atıblar.

**Mövzu ilə bağlı ÜAK prezidenti Fazil Qurbanovla danışdıq.**

***- Fazil bəy, siz bir müddət əvvəl "Yeni Müsavat"a demişdiniz ki, ÜAK-ın qeydiyyatını bərpa etmək mümkün olmasa, o halda yeni təşkilat yaradacaqsınız. Artıq xəbər yayılıb ki, Rusiyanın regionlarından sizə müraciətlər ünvanlanıb və sizi yeni təşkilatın rəhbərliyində görmək istəyirlər. Sizin bu müraciətlərə münasibətiniz necədir?***

- Mən bundan xəbərdaram. Camaatla da danışıram. Həmsöhbət olduğum adamlar deyirlər ki, biz sizə inanırıq və sizinlə irəli getmək istəyirik. Bunun üçün də təşkilat olmalıdır, onun da rəhbəri seçilməlidir. Mən indi regionlarla danışıram, həm də müraciətlər gəlməkdədir. Ancaq öz fikrimi gələn həftə deyəcəyəm. Madam ki, inam var, gərək mən bu təşkilatı düzgün yolla irəli aparım. Yəqin ki, gələn həftənin əvvəlində öz razılığımı verəcəyəm. İndi isə təzə ofis almışıq, ona bir balaca əl gəzdiririk. İnşallah fəaliyyətə başlayacağıq.

***- Deməli, ÜAK-ın bərpası söhbəti bitmiş sayılmalıdır, eləmi?***

- Bəli. Çünki noyabrın 2-də biz kassasiya şikayəti vermişdik. Onlar yenə də bizə cavab yazdılar ki, bəs, ÜAK-ın adından vəkil çıxış edib, müraciət edib, ancaq bu, ola bilməz. Deyirlər çünki ÜAK-ın adını Ədliyyə Nazirliyinin reyestr xidmətindən də çıxartmışıq. Gərək bunu etməyəydilər, ancaq ediblər. Çünki kasasiya şikayətində mənfi qərar olsaydı, onda bu barədə qərar verə bilərdilər. Ancaq bunlar tələsib bizim şikayətimizi də qaytarıblar. Ona görə də biz daha bunlarla baş-başa dayanmaq istəmədik. Dedik ki, bundansa özümüzün yeni təşkilatımızı yaradaq.

***- Yeni qurumun adı necə olacaq?***

- Ola bilsin ki, elə ÜAK qaldı. Biz oturub məsləhətləşəcəyik, nizamnaməmizi hazırlayacağıq. Bundan sonra qurultayla bağlı qərarımızı verəcəyik. Mən çalışıram ki, bu ad qalsın. Amma ola bilsin ki, əsas ad ÜAK qalsa da, ictimai təşkilatla bağlı abrevaturasını fərqli edək. Bu da alınmasa, o halda başqa ideyalar da var.

***- Təsis qurultayınızı nə zaman çağıracaqsınız?***

- Mən qurultay məsələsində tələsmək istəmirəm. İndi ilin axırıdır, yanvar ayı da yarımçıq aydır, bayramlardır. Ona görə də real söhbət fevraldan gedir. Allahın köməkliyi ilə fevral ayında qurultayımızı keçirəcəyik.

***- Fazil bəy, belə çıxır ki, qeydiyyatınızın ləğvi ilə bağlı Avropa Məhkəməsinə şikayət etməyə ehtiyac görməmisiniz, eləmi?***

- Şikayət etsəydik, məsələ uzanacaqdı. Çünki burada hüquqi məsələlər olub, işi düzgün aparmayıblar, sənədləri vaxtında verməyiblər. Artıq qarşı tərəfin arqumentləri var ki, iş düzgün aparılmayıb. Bizim köhnə rəhbərlik başısoyuqluq edib. Ona görə də onlarda hər arqument var. Ayın 25-ndə Rəyasət Heyəti toplaşmalıydı, ildə bir dəfə. Həmin gün keçirməyiblər, 26-sında toplaşıblar. Bir gün keçibsə, artıq bitdi, deməli, o, legitim sayılmır. Ona görə də nə isə deyəndə bildirirlər ki, bunlar filan məsələləri düzgün eləməyiblər. Qurtardı. Odur ki, lap Avropa Məhkəməsinə də şikayət etsək, deyəcəklər ki, ay qardaş, siz düzgün eləməmisiniz də.

***- Yəqin bu dəfə komandanızı mükəmməl insanlarla birgə quracaqcınız ki, əvvəlki problemlər yenidən yaşanmasın, eləmi?***

- Bəli. Bizim alimlərlə, görkəmli ziyalılarla birgə işləmək istəyirəm. Özü də mən daha çox gənclərimizlə işləməyə üstünlük verəcəyəm. Onların təhsili məsələsinə diqqət yetirəcəyəm, gənclər bizim gələcəyimizdir. Vaxtilə burada bizim tələbələrin təhsili üçün kvota verirdilər, o məsələlərə diqqət yetirəcəyik.



## "Bizim köhnə rəhbərlik başısoyuqluq edib"

***- Bəs, komandada əvvəlki məşhur azərbaycanlılar, milyarderlər və digərləri olacaqmı?***

- Bizim qapımız həmişə açıqdır. Əlbəttə, alimlər də, biznesmenlər də var. Onlarla da işləyəcəyik. Amma mən təşkilatımızın strukturunu dəyişəcəyəm.

***- Əsas məsələ budur ki, Rusiya azərbaycanlılarını bir çətir altında birləşdirən təşkilat yenidən fəaliyyət göstərəcək...***

- Əlbəttə. Əsasən də cavanlarımızı bir yerə toplamağa çalışacağıq. Baxın, digər diaspor təşkilatlarında daha çox cavanlara diqqət verirlər. Gənclər bizim gələcəyimizdir, odur ki, gərək onları - Rusiyadakı gənclərimizi işlə təmin edək, yaxşı jurnalistlər, istedadlı mütəxəssislər yetişdirək. Gərək elə edək ki, bizi tanısınlar, sözümüzü eşitsinlər, əsas budur.

***- Həm də erməni təbliğatına qarşı mübarizə aparmaq üçün bu, çox faydalıdır.***

- Bəli. Görün onların nə qədər jurnalistləri var ki, hər yerdə çıxış edirlər. Ona görə də cavanları oxutmaq lazımdır.

***- Bu gün Rusiyadakı azərbaycanlıların sayı Ermənistan əhalisinin sayından çoxdur. Belə olan təqdirdə niyə bir telekanal açılmasın?***

- Doğrudur. Elə mən də istəyirəm ki, bizim radio kanalımız olsun. Çox planlarımız var idi. Ancaq artıq 11 aydır biz məhkəmələrdəyik, böhtanlardan qurtara bilmirik. Mənim təşkilatla bağlı ayrı fikirlərim var...

❑ **Elşad PAŞASOY**

# "Erməni ictimai fikri o dərəcədə həyəcanlanıb ki..."

## Zahid Oruc: "Ermənistanı Qərblə yaxınlaşmaq istəyinə görə cəzalandırmaq variantı meydana çıxarsa, o zaman Azərbaycan xarici siyasət kursunda dəyişiklik etməli olacaq"

**"Ermənistanın siyasi elitası Rusiya-Türkiyə-Azərbaycan əlaqələrini Qarabağa təhlükə sayır və son dövrlər Suriyanın gələcəyi ilə bağlı Soçidə əldə olunan tarixi razılaşmalar İrəvanda olan qorxunu bir qədər də gücləndirir".**



**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc** bu fikirləri "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. O, Qarabağ ətrafında gedən prosesi, Ərdoğan-Putin görüşündən sonrakı müzakirələri, həmsədrlərin iştirakı ilə aparılan danışıqları, nazirlərin görüşü barədə əldə olunan razılığı, Rusiya XİN rəhbəri Sergey Lavrovun Bakı və İrəvana səfərini şərh edərkən maraqlı fikirlər söylədi: "Təsadüfi deyil ki, media məkanında hətta ən qatı hakimiyyət əleyhdarları belə keçmişin onlar üçün ağır təcrübəsinə əsaslanıb Ankara-Bakı-Moskva üçlüyünə separatçı birlik kimi yanaşırlar və hesab edirlər ki, üç dövlət arasında gedən danışıqlar onlardan gizli aparılmaqla mütləq böyük planın tərkib hissəsidir. Yəni, əgər Qərbin maraqları ziddinə Ərdoğan Putinlə vahid bir siyasi ittifaqda birləşərsə, sonra eyni tandem Cənubi Qafqazın gələcəyini müəyyənləşdirməkdə də əsas rol oynaya bilər. O üzdən Lavrovun regiona səfəri lokal şəkildə münaqişə ilə bağlı deyildi, Putinlə bağlı 5 rayonun qaytarılması söhbətini etmiş Ərdoğana Rusiya prezidentinin hansı şərtləri irəli sürdüyünü çatdırmağa xidmət edirdi". Bu arada S.Lavrov bildirdi ki, guya Qarabağ məsələsində Moskva və Vaşinqton arasında hər hansı fikrayrılığı mövcud deyil. Digər tərəfdən, Ankaranın Ağ Evlə münasibətlərində "çat" yarandığı bir məqamda Türkiyənin Qarabağ tənzimlənməsində aktiv rol oynamaq istəyi barədə fərqli yanaşmalar var. Z.Oruc xatırladı ki, uzun on illər Ankaranın rəsmi siyasəti Vaşinqtonun maraqlarına xidmət edib və Cənubi Qafqazda da Amerikanın istəklərindən kənarda türklər hər hansı iqtisadi-siyasi planlara qoşulmurdular: "Hərbi təhlükəsizlik baxımından, Qərbdən kənarda hətta Ərdoğan da hakimiyyətin ilk illərində burada hansısa kəskin hərəkətlərdən, Azərbaycanla yaxınlaşma və birgə silahlı təlimlərdən imtina edirdi. Lakin son illər vəziyyət köklü olaraq, dəyişdi. İndi isə Ankara-Vaşinqton münasibətlərinin hədsiz pisləşməsi belə ümidlər yaradır ki, Moskva qəti şəkildə hərəkətə keçərək, yaranmış vəziyyətdən maksimum bəhrələnməyə çalışır. Mənə elə gəlir ki, Putin növbəti danışıqlarda türkiyəli həmkarına Qərbin iqtisadi-siyasi mənafelərini bölgədən sıxışdırıb çıxarmaq üçün birgə plan təklif edəcək və belə olacağı təqdirdə, Qarabağ məsələsi dediyimiz o "böyük plan"nın fraqmentasiyası olacaq. O üzdən Ermənistanda belə hesab edirlər ki, ATƏT-də son müzakirələr Rusiyanın separatçı planını pozmağa xidmət edib və Avroatlantik Birliyi Putinə belə təhlükəli strategiyasını həyata keçirməyə imkan verməyəcək".

**Zahid Oruc mövzunu şərh edərkən hazırda cərəyan edən digər proseslərə də diqqət çəkdi:** "Hətta erməni ictimai fikri o dərəcədə həyəcanlanıb ki, Rusiya təhlükəsizlik Şurası səviyyəsində Ermənistan və Azərbaycanın hansı şəkildə bir araya gətirilməsi ideyası ətrafında artıq konkret müzakirələrə keçildiyini iddia etməyə başlayıblar. Lakin hazırda Brüsseldə olan Cənubi Qafqaz ölkələri liderlərinin öncə NATO rəhbəri ilə görüşmələri, daha sonra "Şərq tərəfdaşlığı sammitinə qatılmaları tamam yeni bir paradiqmanın meydana çıxması deməkdir. Yəni, Ermənistanı Qərblə yaxınlaşmaq istəyinə görə cəzalandırmaq variantı meydana çıxarsa, o zaman Azərbaycan xarici siyasət kursunda dəyişiklik etməli olacaq. Daha doğrusu, prezident İlham Əliyevin hazırda Avropa Birliyi və NATO ilə münasibətlərin gələcəyini ərazi probleminə münasibət üzərindən qurması Bakının sərt tələblərinin ödənməyəcəyi təqdirdə, əvvəldə qeyd etdiyimiz Rusiya-Türkiyə və Azərbaycanın birgə alternativ geopolitik planlarını reallaşdırmağa təhrik edəcək. Kremlin çevrəsində olan informasiya vasitələrində Sərkisyanı xəyanətdə suçlayan və erməniləri faşizmi dirçəltməkdə qınayan xəttin məhz ən yüksək dairələrdən qaynaqlandığına şübhə yeri yoxdur".

❑ **E.PAŞASOY**



# Ərdoğanı Əsədlə “barışdıran” səbəb

Kənan RÖVŞƏNOĞLU

**Gündəmin əsas hadisəsi Türkiyə prezidentinin Suriya ilə danışıqlar mövzusunda söylədiyi fikirlər oldu. Rəcəb Tayyib Ərdoğan Ankara və Dəməşq arasında yaxın təmasların, birgə fəaliyyətlərin mümkünlüyünü istisna etmədiyini deyib. Sitat: “Siyasətin qapıları, bildiyiniz kimi, son ana qədər hər zaman açıqdır”.**

Hər nə qədər sensasiyalı açıqlama kimi görünsə də, prosesi izləyənlər üçün bu nöqtəyə gəlib çatmanın özü təəccüblü deyildi. Hətta bəziləri Soçidə prezidentlərin görüşündən bir gün əvvəl Putinlə bir araya gələn Bəşər Əsədin Ərdoğanla da görüşə biləcəyini iddia edirdilər. Amma bunlar sadəcə, iddia və ehtimallar idi. Real proseslər isə hələ iki il əvvəl başlayıb.

İlk dəfə iki il əvvəl məlum oldu ki, Türkiyənin NATO müttəfiqi, Yaxın Şərqdə ən əhəmiyyətli silahdaşı olan ABŞ artıq Suriyada hərəkətlərini Türkiyə ilə uzlaşdırmır. Daha konkret ifadə ilə yazsaq, Pentaqon Suriyanın şimalında kürd siyasi təşkilatı PYD və onun hərbi qanadı YPG-ni dəstəkləyir. Hansı ki, bu qruplaşma PKK-nin Suriya qolu hesab olunur və faktiki olaraq həmin vaxt İraq-Suriya-Türkiyə sərhədindən Hatay vilayətinin Reyhanlı rayonuna qədər ərazidə Türkiyə-Suriya sərhədinə faktiki nəzarət edirdi. Artıq onların 2015-ci ildə faktiki muxtariyyəti, məclisi, idarə orqanları və hətta polisləri belə vardı. Ən mühüm isə ABŞ ordusu əsasən kürdləri dəstəkləyir və planlanan Raqqa əməliyyatına illərin müttəfiqi Türkiyə ilə deyil, kürdlərlə getməyi qərara almışdı.

Suriyada kürdlərin özü də Ankaranın PKK-nın silahdaşı elan etdiyi PYD-nin muxtariyyət qurması Türkiyənin birbaşa ərazi bütövlüyünü təhdid edən, eləcə də onun Suriyada əl-qolunu bağlayacaqdı. Bu planı 2016-cı ilin 24 avqustunda Türkiyə ordusunun başlatdığı “Fırat Kalkanı2 əməliyyatı da poza bilmədi - baxmayaraq ki, Türkiyə ordusu 5 aylıq əməliyyat nəticəsində Əziz-Cerablus arasındakı ərazini ələ keçirdi. Ancaq kürdlər bu dəfə cənuba doğru irəlilədi, 2017-ci ilin aprelində Tramp hökuməti Suriya kürdlərinə - hansı ki, artıq digər etnik qrupları da ətrafına toplamaqla Suriya Demokratik Qüvvələri adlı siyasi ittifaq yaratmışdılar - 300 milyon dollarlıq silah və sursat verdi. Payızda isə kürdlər ABŞ aviasiyasının köməyi ilə İŞİD-in Suriyadakı "paytaxtı" Raqqanı ələ keçirdilər. Hazırda Suiryanın 25 faizdən çox ərazisinə nəzarət edən kürdlər hökumətdən sonra əsas silahlı qrupa çevriliblər.

Ankara isə hələ 2016-cı ildə Suriya siyasətində korrektlərə başlamışdı. Hər kəsə - amerikalılara daha əvvəldən - aydın idi ki, Bəşər Əsədin devrilməsi və 3 ayda Dəməşqdə yeni hökumət qurulması arzuları artıq xəyaldır. Amerikalılar 2013-cü ildə Əsədin gedib-getməməsinin prioritet olmadığını elan etdilər və aydın idi ki, Vaşinqton yeni dönəmdə kürdlər vasitəsilə Orta Şərqdə güc tarazlığı qurmağa çalışır. Bu isə ən çox Ankaranın “ayağını” tapdamaq idi.

Bu səbəbdən də rəsmi Ankara 2016-cı ildən etibarən Suriyadakı silahlı müxalifləri dəstəkləməklə yanaşı, Suriyanın ərazi bütövlüyünün qorunmasına vurğu etməyə başladı. Çünki artıq Suriyada Əsədin alternativi parçalanmış, şimalında yeni de-fakto kürd dövləti yaranmaqda idi. Bu isə ən çox Türkiyənin zərərinə idi. Çünki Türkiyənin cənubunda onun ərazi bütövlüyünü təhdid edən separatizm ocağı yaranırdı. Bu səbəbdən də Ankara istər-istəməz “iki pisdən nisbətən az pisi” seçməyə məcbur oldu. Suriyanın unitar quruluşu və ərazi bütövlüyü məsələsi Bəşər Əsəddən önə keçdi. Bu mövzuda Ankara ilə eyni mövqeni bölüşən isə İran və Bəşər Əsədin özü idi.

**Ərdoğan Soçidən qayıdarkən təyyarədə jurnalistlərlə söhbətində Suriyada kürd mövzusu ilə bağlı ümidli danışıb. Onun sözlərindən belə aydın olur ki, İran və Rusiya kürd məsələsinin Türkiyə üçün həssaslığını anlayır. Ancaq İran məsələsində şübhə olmasa da, Rusiyanın kürd mövzusunda mövqeyi hələlik aydın deyil. Çünki ruslar Suriyadakı etnik, dini və siyasi qrupların konqresinə kürdləri də dəvət etmək istəyirlər. Görünən odur ki, Moskva kürd reallığını qəbul edir və siyasi anlaşmaya kürdləri də daxil etmək istəyir. Ancaq Ankara bu mövzuya çox həssas yanaşır. Türkiyə prezidentinin açıqlamasından o da aydın olur ki, Ərdoğan Afrin bölgəsini, yəni Hatayla sərhəd ərazidə qalmış “kürd anklavını” tələb edir. Ehtimal ki, ruslar Afrini Türkiyəyə verməklə, yeni kürdləri oradan çıxarmaqla Türkiyəni kürdlərin Suriya konqresində iştirakına razı salmağa çalışacaqlar. Yaxın dövr üçün mümkün görünsə də, gələcək üçün kürd mövzusunun Ankara-Moskva-Vaşinqton “üçbucağında” necə həll olunacağı hələ də ciddi sual olaraq qalır.**

# Türkiyə üçün kritik 2 il - Qərb revanş edə bilər...

## Elxan Şahinoğlu: “Qərb istəmir ki, Ərdoğan növbəti seçkilərdə də qalib gəlsin”

## Tofiq Abbasov: “NATO bu dövləti zəiflətmək üçün hər an dağıdıcı planını işə sala bilər”

**Türkiyədə iki ildən sonra keçiriləcək prezident seçkiləri ilə bağlı müzakirələr indidən sürətlə başlayıb. Müzakirələrin əsasını isə hazırda Qərblə münasibətləri heç də müsbət olmayan rəsmi Ankaraya qarşı həmin seçkilərdə gələ biləcək təzyiqlərlə bağlıdır. Ekspertlər Qərbin münasibətləri xoş olmadığı ölkələrə qarşı hər zaman bu tipli seçkilərdə təzyiq riçaqlarını işə saldığını bildirərək, Türkiyənin qarşıdan gələn seçkilərdə bundan sığortalanmadığını qeyd edirlər.**

Qardaş ölkənin hakim dairələrində də indidən bu narahatçılıq sezilməkdədir. Xüsusilə günlər öncə Türkiyə prezidentinin baş müşaviri Yalçın Topçubaşın ölkəsinin NATO-dan çıxmasının gözdən keçirilməsi ilə bağlı təklifində bu yöndə səsləndirdiyi fikirlər geniş müzakirələrə səbəb olub. Türkiyədəki bütün hərbi çevrilişləri NATO-nun etdiyini deyən baş müşavir bu işin arxasında Türkiyəni hədəfə alan gizli məqsədlərin yatdığını, əsas hədəfin isə 2019-cu ildə Türkiyədəki prezident seçkiləri olduğunu bildirib.

Siyasi şərhçilər qarşıdakı iki ilin Türkiyə üçün çətin olacağını proqnozlaşdırırlar. Qardaş ölkə NATO-dan çıxacağı təqdirdə seçkilərdə Qərbin müdaxiləsinin mütləq olacağı bildirilir. **Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, Amerikada elə güclü mərkəzlər fəaliyyət göstərir ki, istənilən dövlətdə çevriliş, siyasi proseslərin ələ alınması kimi planlar həyata keçirə bilirlər: “Təcrübələr onu göstərir ki, bəzi dövlətlərdə istəklərinə nail olublar. Ona görə istisna etmirəm ki, Türkiyə üzərində də belə planlar qurulsun. NATO-dakı hadisə də təsadüfə oxşamadı. Əgər əvvəllər Ərdoğan hədəf götürülürdüsə, bu dəfə artıq Türkiyə dövlətinin qurucusu hədəfə alınır. Burada çox ciddi bir şəbəkə işləyir. Məqsəd də odur ki, Türkiyə-NATO münasibətlərini bir az da gərginləşdirsinlər. Elə etmək istəyirlər ki, Türkiyənin özü NATO-dan uzaqlaşmaq qərarı versin. Prezident seçkilərində gəlincə, əlbəttə Qərbdə Ərdoğanın əleyhdarları çoxalıb. Qərb istəmir ki, növbəti seçkilərdə Ərdoğan yenidən qalib gəlsin. Bu istiqamətdə müəyyən alətlərini də işə sala bilərlər, həm Türkiyə daxilində, həm də xaricində başda PKK olmaqla. Nurçu şəbəkəsinə qədər əllərində imkanlar var. Düzdür, imkanları bir az zəifləyib, amma əllərində hələ də müəyyən imkanlar qalır. Açığı, düşünmürəm ki, bunlar Ərdoğanı prezident seçdirməyəcək qədər güclü alətlər olsun. Əvvəllər də bəzi təşəbbüslər oldu, hətta ötən ilin yayında çevriliş cəhdi edildi, 250 nəfər həlak oldu. Amma istədiklərinə nail ola bilmədilər. Bundan əvvəl də müəyyən liberal dairələrin cəhdləri olmuşdu. Bu baxımdan gələ-





cəkdə qurulacaq planların Ərdoğanı devirəcəyini düşünmürəm. Hələ ki Ərdoğan güclü fiqur olaraq qalmaqdadır. O faktdır ki, seçkinin taleyini türk cəmiyyətinin özü həll etməlidir. Deyə bilmərik ki, Türkiyə ictimaiyyətinin tamamı Ərdoğanı dəstəkləyir. İki nəfərdən biri onu dəstəkləyir, bu dəstək də 50%-dən az olmur. Amma hər şey müxalifətin əlindədir. Əgər müxalifət seçkiqabağı uğurlu kampaniya qursa, bəlkə müxalifətə də səs verildi. Amma hələ ki, son 15 ildə Ərdoğan partiyası bir seçki və ya referendumu uduzmayıb. Çoxunda böyük səs çoxluğu ilə qalib gəlib. Yalnız birində səs kifayət etməyib ki, hökumət formalaşdırılsın, onda da koalisiya alınmadı, yeni seçkilərdə isə AKP mütləq çoxluğa yiyələndi. Gələcəkdəki prezident seçkilərinə də Ərdoğan güclü bir fiqur kimi gedir. Onun əsas hədəfi odur ki, 2023-cü ildə Cümhuriyyətin yüz illiyində nəzərdə tutduğu böyük layihələrin icrasına başlanılsın. Bu baxımdan o da seçkilərə ciddi hazırlaşır. İndinin özündə belə onu otağında tapmaq mümkün deyil. Paytaxtdan tutmuş bütün şəhərləri gəzir, çıxışlar edir, Türkiyənin daxili və xarici düşmənləri haqqında fikirlər söyləyir, yeni vədlər verir. Seçkilərə iki il qalmasına baxmayaraq, bu adam öz üzərində işləyir ki, reytinqi aşağı düşməsin. Çalışır ki, xarici güclər alətlərini işə saldıqları vaxt onlara qarşı mübarizə apara bilsin. Ola bilər ki, NATO-nun bəzi ölkələrində Ərdoğanın devrilməsi ilə bağlı indidən planlar cızılsın. Bu planları da hərəkətə gətirməyə çalışa bilərlər. Amma bunların reallaşacağı inandırıcı deyil. Çünki Türkiyə cəmiyyətində hələ də Ərdoğana ciddi dəstək var”.

**Politoloq Ərdoğan iqtidarının seçkilərə qədər Qərblə münasibətlərini normallaşdırmaq yönündə addımlar ata biləcəyini də istisna etmədi:** “Misal olaraq, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun noyabrın 23-dəki çıxışını göstərə bilərik. O, İtaliyadakı səfəri çərçivəsində italiyalı həmkarı ilə ortaq mətbuat konfransı keçirdi. Orada açıq söylədi ki, NATO, Qərb, Avropa Birliyi və Amerikanın düşməni deyilik, əksinə, biz əlaqələrin inkişafını istəyirik. Bu yumşalma yönündə açıqlamalardır ki, gəlin bizimlə düşmənçilik etməyin, bizim də sizinlə düşmənçilik etmək niyyətimiz dünəndən yoxdur. O, açıqca dedi ki, siz bizə müdafiə xarakterli raketlər satmadınız, biz məcbur olub Rusiyadan aldıq. İnanmıram ki, Türkiyənin hazırkı hakimiyyəti Qərbə arxa çevirsin. NATO bir struktur olaraq, Türkiyə üçün lazımdır, Türkiyə ordusunun böyüklüyünə görə NATO-nun ikinci dövlətidir. NATO eyni zamanda dünyanın ən güclü təhlükəsizlik qurumudur. Qardaş ölkənin orada olması onun statusunu artırır. Bu baxımdan Türkiyə də marağında deyil ki, NATO ilə münasibətləri gərgin olsun. Avropa İttifaqı Türkiyəni 60 il qapısında gözlətdi, Türkiyə tərəfi sərt açıqlamalar verdi. Amma rəsmi Ankara yenə də bilir ki, Avropadan uzaqlaşmaq olmaz. Çünki əsas ticarət tərəfdaşları Avropa ölkələridir. Bu reallıqlarla türk rəsmiləri hesablaşırlar”.

**Politoloq Tofiq Abbasov** isə Axar.az -a açıqlamasında bildirib ki, Qərb bütün müsəlman ölkələrini potensial düşmən qismində görür: “Türkiyə də bu sırada istisna deyil. Özəlliklə də ABŞ hazırda əsas rəqibləri olan Rusiya, Çin, Şimali Koreya, İran, Kuba, Suriyaya qarşı məqsədli planlarını gerçəkləşdirməyə çalışır. Vaşinqtonun bu prosesdə bir nömrəli məqsədi sözügedən dövlətləri tərksilah etməkdir. Türkiyənin NATO-dan asılılığı azaldıqca alyansın Ankaraya qarşı aqressivliyi daha da artır. Bu fonda Norveçdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı və Cümhuriyyətin banisi Mustafa Kamal Atatürkü hədəfə alan təlim qalmaqalının arxasında məkrli məqsədlərin dayandığını istisna etmək olmaz. Türkiyədə siyasi çevrilişləri hazırlayan NATO bu dövləti zəiflətmək üçün hər an dağıdıcı planını işə sala bilər. Çünki NATO üzv dövlətlərə qarşı ənənəvi mənfur siyasətini son zamanlar açıq şəkildə ortaya qoyur. Bu fonda Türkiyənin bölgə siyasətini NATO-suz davam etdirməsi doğru addım olardı”.

❑ Cavanşir ABBASLI

# Əli Kərimlinin separatçılarla əməkdaşlığı iş birliyi Azərbaycana nə vəd edir...

## “O, elə bir tipdir ki, şeytanla da əməkdaşlıq edər, təki pul olsun”

**AXCP-nin inhisarında olan Milli Şuranın Azərbaycanda vətən xaini kimi tanınan şəxsləri öz sıralarına cəlb etməsi, onlarla yaxından əməkdaşlığa üstünlük verməsi sirr deyil. AXCP sədri Əli Kərimli usanmadan separatçılarla əməkdaşlığı davam etdirir və açıq şəkildə.**

Əli Kərimli və onun çevrəsinin Azərbaycan dövlətçiliyinə qarşı çıxan, indi isə Avropadan dövlətimiz əleyhinə fəaliyyət şəxslərlə yeni əlaqələri aşkarlanıb. Məlum olub ki, hazırda Milli Şuranın Avropada əsas dayaqlarından biri Hollandiyada yaşayan, Azərbaycanda vətən xaini kimi tanınan Ataxan Əbilovdur. Ə.Kərimlinin dostu və tələbə yoldaşı olan bu şəxs həmin şəxsdir ki, Hollandiyada “Oyan” adında hərəkat yaradıb və bu hərəkat vasitəsilə Avropa fondlarından 350 min avro alaraq, Azərbaycan əleyhinə təbliğat aparır.

A.Əbilov 29 iyun 1965-ci ildə Masallı rayonunun Kubin kəndində anadan olub. Hazırda Niderland Krallığında siyasi mühacir qismində yaşayır.

O, 1992-ci ildə talış separatçıları tərəfindən yaradılmış “Azərbaycan Xalqlarının Bərabərliyi Partiyası”nın fəal üzvlərindən olub. Bu səbəbdən də 1993-cü ildə hüquq müəllimi işlədiyi BDU-dan qovulub. Əbilov Azərbaycanın ərazi bütövlüyünü xaincəsinə parçalamağa çalışan, Əlikram Hümbətov tərəfindən yaradılan, tanınmayan qondarma “Talış Muğan Respublikasının” konstitusiya komissiyasının sədri olub. Eyni zamanda, Hümbətovun müavini də olub.

Onun xarici xüsusi xidmət orqanları ilə əlaqələri var və dəfələrlə onlardan müxtəlif məbləğlərdə maliyyə yardımı alıb. İddialara görə o, Milli Şura və Bakı müxalifəti ilə məhz xarici xüsusi xidmət orqanlarının tövsiyəsi ilə bağlıdır...

A.Əbilov Azərbaycanı tərk etdikdən sonra Moskva şəhərində Rusiya dövləti ona ölkə ərazisində daimi yaşamaq hüququ və siyasi qaçqın statusu vermişdi. O, Rusiyada yaşadığı dövrdə Moskva şəhərində keçirilən separatçı talış təşkilatlarının müxtəlif toplantılarında yaxından iştirak edib. 14 yanvar 2009-cu ildən Niderland Krallığına mühacirət edib və siyasi mühacir statusu alıb. Hazırda Hollandiyanın Amsterdam şəhərində yaşayır. Eyni şəhərdə yaşayan Hümmətovlarla və Azərbaycanın siyasi mühacirləri ilə yaxşı əlaqələrə malikdir.

Bir faktı deyək ki, hətta ötən il onun 50 illiyi ilə bağlı Kərimli bir təbrik yazmış, bunu da öz mətbu orqanı sayılan “Azadlıq” qəzeti və eyni adda fəaliyyət göstərən sayta vermiş və bununla çevrəsindəki millətçiləri də mat qoymuşdu.

A.Əbilovla bağlı belə faktlar saysız-hesabsızdır. Belə ki, onun sağ əli sayılan, Avropada yaşayan, özünü Milli Şura və AXCP-çi sayan





Vüqar Niftəliyev adlı şərəfsiz ətrafındakı iki gənclə türk bayrağını ayaqları altına salaraq, foto çəkdirib facebookda paylaşıb.

**BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı** “Yeni Müsavat”a sərt açıqlamalar verdi: “Əli Kərimli elə bir tipdir ki, necə deyərlər, şeytanla da əməkdaşlıq edər, təki hakimiyyətə gələ bilsin, maddi qazanc əldə etsin. Azərbaycan dövlətini parçalamağa cəhd edən separatçı Əlikram Hümbətovun müavini olan Ataxan Əbilovun Əli Kərimli ilə isti münasibətlərinin olması, onların bu gün siyasi maraqlarının üst-üstə düşməsidir. Bir-birilərinə ona görə dəstək verirlər ki, ortada maliyyə var. Azərbaycan dövlətinin əleyhinə xaricdə yaşayan bir sıra şəxslərdən istifadə olunur. Bu adamlara əsas dəstəyi təbii ki, qeyd etdiyim kimi, dövlət müstəqilliyimizi sevməyən və onun zəifləməsində birbaşa maraqlı olan güclü erməni diasporu və lobbisi verir. Kifayət qədər maliyyə imkanları da olur, pul verirlər. Avropada fəaliyyət göstərən bir sıra beynəlxalq təşkilatların apardığı fəaliyyət çərçivəsində bu adamlardan məharətlə istifadə olunur. Bunların da dövlətə təzyiq etmək mexanizmi bu yolladır. Ataxan Əbilov maliyyə qarşılığında bu cür fəaliyyət göstərir. 350 000 avronu boş yerə Ataxan Əbilova verməzlər. Separatçı Ataxan Əbilovun sağ əli olan Vüqar Niftəliyev təbii ki, türk bayrağını tapdalayacaq. Üstünə "erməni" yazılan köynək geyinəcək. Bunlar birbaşa türk adına nifrət edirlər. Türk dövlətlərinə patoloji nifrətləri var. Bu adamın da Milli Şurada olmasına çox təbii baxıram. İranda fars rejiminin ətrafında olan qüvvələr Milli Şura yarandığı gündən bu günə kimi onlarla əməkdaşlıq edirlər. Əli Kərimli üçün heç bir fərq yoxdur. O adam həm Avropadan, həm Rusiyadan, həm də İrandan da maliyyə ala bilir. Onun bu xarakterini hər kəs bilir. Milli Şuranın son 3 mitinqində böyük əksəriyyəti İran rejiminin təsirində olan qüvvələr idi. Vüqar Niftəliyevin dövlətçilik əleyhinə xaricdə apardığı faktlar mövcuddursa, təbii ki, Azərbaycan hüquq-mühafizə orqanları bununla bağlı cinayət işi açmalıdır. Xaricdə yaşamaqla, cinayətdən qaçmaq olmaz".

**N.Orduxanlı vaxtı ilə separatçı “respublikanın” rəhbərliyində təmsil olunan istənilən şəxsin vətən xaini olduğunu da qeyd etdi:** “Talış Muğan Respublikası"nın konstitusiya komissiyasının sədri olmuş adam birbaşa dövlətimizə xəyanət etmiş şəxsdir. Bu plana dəstək verən hər kəs vətən xainidir, satqındır! Bütün bunların qarşısını 1993-cü ildə mərhum heydər əliyev aldı. Ataxanəbilovlar, vüqarniftəliyevlər, əlikramhümbətovlarırn100 Əli Kərimli kimi adamla əməkdaşlıq etmələri heç nəyi dəyişməyəcək. Və bu adamları - bir daha qeyd etmək istəyirəm ki - hüquq-mühafizə orqanları ciddi şəkildə nəzarətə götürməlidir".

❑ **Cavanşir ABBASLI**

# İŞİD Azərbaycan sərhədlərində - qonşuluqdakı təhlükə ölkəmizə keçə bilərmi...



## **Sülhədin Əkbər:** “Onlar MDB məkanındakı ölkələrdə hər an peyda ola bilərlər”

## **Arzu Nağıyev:** “Hüquq-mühafizə və təhlükəsizlik orqanlarının üzərinə çox mühüm vəzifələr düşür”

**Gürcüstanın paytaxtı Tiflisin İsani-Samqori rayonu ərazisindəki Qabriel Salou prospektində həyata keçirilən antiterror əməliyyatında İŞİD üzvü olan çeçen əsilli 3 terrorçu öldürülüb, biri isə sağ ələ keçirilib. Eyni zamanda xüsusi təyinatlı dəstənin 2 üzvü və Daxili İşlər Nazirliyinin əməkdaşları yaralanıb. Bundan əvvəl isə Dağıstanda terror əleyhinə əməliyyat keçirilmişdi. Digər qonşumuz İran ərazisində də oxşar əməliyyat baş vermişdi. Noyabrın 3-də İranın şimal-qərbindəki Qərbi Azərbaycan əyalətində terrorçuların hücumu nəticəsində 8 sərhədçi həlak olub.**

*Gürcüstan, Dağıstan və İrandakı antiterror əməliyyatları bu dövlətlərin hər biri ilə qonşu olan Azərbaycanı narahat etməyə bilməz. Son illərdə ard-arda ağır məğlubiyyətlər alan İŞİD terror təşkilatı üzvlərinin dünyanın müxtəlif yerlərinə səpələndikləri barədə hələ aylar öncədən xəbərlər yayılmışdı. Xüsusilə terrorçuların daha çox öz ölkələrinə qayıtmağa üstünlük verdikləri deyilirdi. İŞİD-in Suriyadakı iflası digər dövlətlər kimi bizim dövlətimiz üçün hansı təhlükələr doğura bilər?*

**Azərbaycan Atlantik Əməkdaşlıq Assosiasiyasının prezidenti, sabiq təhlükəsizlik zabiti Sülhəddin Əkbər** aylar öncədən belə bir təhlükənin olacağını proqnoz olaraq mətbuata açıqlamalarında bildirmişdi. Demişdi ki. İŞİD-in Suriyadan sıxışdırılaraq çıxarılması terror təşkilatının sıralarında olan və döyüşlərdən sağ çıxan yaraqlıların öz ölkələrinə geri dönmələri deməkdir: “İŞİD Suriya və İraqda əraziləri itirdikcə digər ölkələrə sızmağa başlayacaq. İlk növbədə də xarici döyüşçülərin gəldikləri ölkələrə yayılmağa başlayacaqlar. Artıq İŞİD Suriya və İraqda nəzarətdə saxladıqları əraziləri itirib. Bəzi ölkələr İŞİD-ə qalib gəlmələrini qeyd edirlər. Belə olan halda kəşfiyyat orqanlarından gələn məlumatlar da təsdiqləyir ki. Artıq proses başlayıb. İndi proqnozlaşdırmaq olar ki, İŞİD-çilər 2 istiqamətə gdəcəklər. 1-cisi gəldikləri ölkələrə geri qayıdacaqlar, 2-ci bir hissə isə İŞİD-ə verilən hədəflərə doğru hərəkət edəcəklər”.

**S.Əkbər deyir ki, xüsusi xidmət orqanları hazır vəziyyətə gətirilməlidir:** “İŞİD-in tərkibində keçmiş MDB məkanından döyüşənlərin əksəriyyəti Rusiyadandır. Deməli, onlar Rusiyada, Mərkəzi Asiyada, Şimali Qafqazda, Gürcüstanda, o cümlədən Azərbaycanda hər an peyda ola bilərlər. Bunun üzərinə bu ölkələrdən hər hansı birinin hədəf göstərildiyini gəlsək, demək onlar burada aktiv hala keçəcəklər”.

**S.Əkbər bildirir ki, ilkin olaraq İŞİD-in hədəfi kimi İran göstərilib:** “İran daxilində bu terror təşkilatının fəaliyyəti var. Amma hərəkətlilik üçün o qədər də əlverişli şəraitləri yoxdur. Ona görə də qonşu ölkələrə sıza biləcəkləri də istisna deyil. Belə qonşu ölkələrdən biri də Azərbaycandır. Eyni zamanda Rusiyanın hədəf masasına çaxması gündəlikdədir. Məsələ konkretləşməyib, amma həmin qüvvələrin MDB məkanında da aktiv fəaliyyətə keçməsi mümkündür. İstər İran, istərsə də Rusiya hədəfə çıxacaqsa, Azərbaycan da "terror coğrafiyasına" daxil olacaq".

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev** deyir ki, ümumilikdə terrordan heç bir dövlət sığortalanmayıb: “Kimsə çıxıb deyə bilməz ki, filan dövlətdə terror heç vaxt olmayacaq. Suriya və digər yerlərdə döyüşən terrorçular artıq qayıtmağa başlayıblar. Azərbaycanın şimalında da bu məsələ hələ öz həllini tam tapmayıb. Rusiya Federasiyasının 89 subyektindən 11-də müsəlman inanclıdır. Həmin 11 subyektdən İŞİD sıralarına 5500-dən artıq şəxsin qoşulduğu haqda dəqiqləşmiş məlumatlar var. Həmin şəxslərin yarısı döyüşlərdə qırılsa da, yarısı da geri qayıdacaq. 2018-ci il Rusiyada seçki ilidir. Qərbin sanksiyalarının kəsərini bir qədər də artırmaq üçün Suriyada baş verən proseslərə dolayı müdaxilə etmək üçün həmin sağ qalan döyüşçülərdən Rusiya ərazisində istifadə edəcəklər. Eyni zamanda Orta Asiyada - Qırğızstan, Qazaxstanda, Əfqanıstanda baş verən hadisələr də bir daha göstərir ki, bu ərazilərdə də İŞİD peyda ola bilər”.

**A.Nağıyev deyir ki, baş verənlər Azərbaycan üçün də gələcəkdə problemlərin yaranmasına gətirib çıxara bilər**: “Sadəcə olaraq, Azərbaycan əməliyyat şəraitinə daha düzgün nəzarət edir. Digər tərəfdən, hüquq-mühafizə orqanları və Cinayət Məcəlləsində olan bəzi dəyişikliklər də bu cür halların azalmasına səbəb olub. Yeni İŞİD-çı Azərbaycana gələcəksə, dərhal həbs olunacaq. O. artıq qanunsuz silahlı dəstədə vuruşmuş biridir. Bu o demək deyil ki, onlar silahla gəlirlər. Öz yerlərində onlara biət etmiş şəxslərlə müəyyən işlər qurmaq üçün də onlar geri dönməyə cəhd edə bilərlər. Tək onu demək mümkün deyil ki, onlar gəlib özlərini partladıb terror aktı həyata keçirəcəklər. Proseslər davam edir. Hüquq-mühafizə və təhlükəsizlik orqanlarının üzərinə çox mühüm vəzifələr düşür. Terrorçuların hər yerdə adamları var, bunlara hər yerdə biət etmiş şəxslər mövcuddur. Tək onların bura gəlib nəsə edə biləcəklərini də düşünmək doğru deyil. Daxildən də nələrsə edə bilərlər. Gürcüstan son vaxtlar Qərb dövlətləri ilə yaxınlaşdıqca, koalisiyada iştirak etdikcə, bu hadisələr orada təkrarlanacaq. Artıq Gürcüstana Qərb kimi baxılır. Bu günlərdə Gürcüstan ordusunun 3 hərbçisi beynəlxalq kolisiyanın tərkibində Əfqanıstanda yaralanmışdı. Bu xəbər yayıldı və Gürcüstanda terror məsələsi baş qaldırdı. Bu, təsadüfi deyildi”.

❑ **E.MƏMMƏDƏLİYEV**

**“Azərkitab” Kitab Təbliğatı Mərkəzində Qarabağ qazisi, jurnalist Rey Kərimoğlunun “Kod adı: "Rey" kitabının təqdimat mərasimi keçirilib. “APA Holding”ə daxil olan Lent.az İnformasiya Agentliyi tərəfindən çap olunan yeni nəşrdə müəllifin 1991-1992-ci illərdə Qarabağda gördükləri xatirə şəklində yer alıb.**

# "Kod adı: "Rey" kitabının təqdimatı keçirildi

## Qarabağ qazisi, jurnalist Rey Kərimoğlu birinci Qarabağ savaşında gördüklərini qələmə alıb












Musavat.com xəbər verir ki, tədbirdə deputatlar, yazıçılar, jurnalistlər və digər ictimai şəxslər iştirak ediblər.

Tədbirdə Rey Kərimoğlunun döyüşçü kimi keçdiyi həyat yoluna nəzər salınıb, müəllifin kitabı Qarabağ müharibəsindən bəhs edən qiymətli mənbə kimi dəyərləndirilib.

İlk olaraq çıxış edən **Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov** qeyd edib ki, indiyədək Qarabağ döyüşləri haqqında çoxsaylı kitablar yazılsa da, Rey Kərimoğlunun müəllifi olduğu nəşr bir sıra xüsusiyyətləri ilə onlardan fərqlənir: "Biz Rey Kərimoğlunu döyüşçü, kəşfiyyatçı kimi tanımışıq. Amma bununla yanaşı Rey indiyədək ona yaxın mətbuat orqanında çalışıb, bir-birindən maraqlı yazıları ilə oxucularını sevindirib. Kitab xatirələr əsasında yazılıb. Düşünürəm ki, bu kitab Qarabağdan bəhs edən yaxşı bir filmin ssenarisi ola bilər. Çünki Rey Kərimoğlunun kitabında ağrı ilə bərabər böyük vətən sevgisi var".

Çıxışından sonra Ə.Amaşov müəllifi Mətbuat Şurasının diplomu ilə təltif edib.

Daha sonra söz **Lent.az İnformasiya Agentliyinin rəhbəri Qabil Abbasoğlu**na verilib. O da rəhbərik etdiyi media orqanının indiyədək bir neçə maraqlı kitabı oxucuların ixtiyarına verdiyini diqqətə çatdırıb. Q.Abbasoğlu əlavə edib ki, sözügedən media qurumu gələcəkdə məzmun və ictimai əhəmiyyəti etibarilə maraqlı olan digər nəşrləri də oxuculara təqdim edəcək.

Təqdimat mərasimində çıxış edən **xalq şairi Sabir Rüstəmxanlı** da Rey Kərimoğlu və digər döyüşçülərimiz barəsində fikirlərini bildirib. O qeyd edib ki, sevindirici haldır ki, Rey bəyin kitabının təqdimatına bu qədər dəyərli insanlar gəliblər:

"Azərbaycanın bugünkü mətbuatını yaradan insanlar bu zala toplaşıblar. Reyi 50 yaşı münasibətilə də təbrik edirəm. Doğrusu, onun bu yaşa çatdığını təsəvvür etmirdim. Çünki gözümdə daha gəncdir. Kitabı oxumasam da burada vərəqlədim. Düşünürəm ki, Reyin kitabı haqqında danışmaq o qədər də çətin deyil. Çünki illər uzunu o, xatirələrini saytlarda, qəzetlərdə yazıb".

Daha sonra çıxış üçün söz **deputat Hadı Rəcəbli**yə verilib. O da bildirib ki, Rey Kərimoğlunu uzun müddətdir ki, tanıyır:

"Mətbuatda bəzi məsələləri müxtəlif yozub, təhrif edilmiş formada ortaya çıxarıblar. Ancaq görürsünüz ki, biz yenə də yanaşı oturmuşuq. Reyin bir mesajı gələn kimi mən onun yanındayam. Çox sevinirəm ki, belə bir kitab ortaya çıxıb. Burada qısa hekayələr formasında oxunaqlı yazı ortaya qoyulub. Bəzən uzun roman olur ki, adamı yorur. Ancaq bu kitab diqqəti cəlb edir və oxunaqlıdır. Əməyi olan hər kəsə minnətdaram ki, belə bir iş ortaya qoyublar".

**Tədbirdə deputat Aqil Abbas, şair Ramiz Rövşən, Qarabağ Qaziləri Birliyinin rəhbəri Etimad Əsədov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl və digərləri də çıxış edərək, Rey Kərimoğlunun keçdiyi döyüş yolu və təqdimatı olan kitab haqqında fikirlərini bildiriblər.**

Rey Kərimoğlu kitabın "APA Holding" tərəfindən ona hədiyyə edildiyini diqqətə çatdırıb. O bildirib ki, bu kitabı yazmaqda əsas məqsədi Qarabağ müharibəsində baş verənləri ictimaiyyətə, dünyaya çatdırmaq olub:

"Müharibədə 18-19 yaşında həlak olan nakam gənclərimiz də olub. Əsas məqsədim o gənclərimizin adlarını, müharibədə baş verənləri gələcək nəsillərə ötürmək olub".

Qeyd edək ki, "Qanun" nəşriyyatında çap olunan kitabın redaktoru Səhər Əhmməd, korrektoru Əyyar Tahirov, rəssamı ehtiyatda olan polkovnik Tərlan Eyvazovdur.

❑ **Əli RAİS**

❑ **Fotolar müəllifindir**

# Səlim Müslümovun Qarabağ qazisi müavini kim olsun...

## Elşad Paşasoy: "Etimad Əsədovun, Rey Kərimoğlunun öz səngər yoldaşlarının problemlərini həll etmək üçün fədakarlıqlar etdiklərinin şahidiyəm"

**Millət vəkili Zahid Oruc Milli Məclisin plenar iclasında maraqlı bir təkliflə çıxış edib. O, təklif edib ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinlərindən biri Qarabağ müharibəsi əlillərindən biri olsun. Qeyd edib ki, Qarabağ müharibəsi əlili problemlərə daha yaxından bələd olduğundan onların problemlərinin həllində yaxından iştirak edə bilər.**


Elşad Paşasoy


Səlim Müslümov

Deputat çıxışında bir sıra məqamlara toxunub və bildirib ki, Qarabağ müharibəsi şəhidlərinin ailələrinə və əlillərinə verilən müavinətlər artırılmalıdır.

Millət vəkili əmək və əhalinin sosial müdafiəsi nazirinin müavinlərindən birinin Qarabağ müharibəsi əlili olmasını təklif edib. Deputatın bu təklifi cəmiyyət tərəfindən də müsbət qarşılanıb.

**"Yeni Müsavat" qəzetinin siyasət yazarı Elşad Paşasoy** Azərbaycanın müharibə şəraitində olduğunu xatırladaraq, bu təklifin əhəmiyyətini vurğulayıb: "Öncə bildirim ki, kifayət qədər yerində verilmiş təklifdir və buna görə elə parlamentdəki müzakirələrdən sonra deputat Zahid Oruca şəxsən təşəkkür etdim. Bu təklifə konkret fərdin hansısa vəzifəyə təyin olunması deyil, Qarabağ məsələsi kontekstindən yanaşmaq lazımdır. Nə qədər ki, Azərbaycan əraziləri işğal altındadır, nə qədər ki, qarşıda təcavüzkar Ermənistan və onun havadarlarının təhdidlər var, ölkəmizdə "hər şey cəbhə, hər şey qələbə üçün" olmalıdır. O cümlədən Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindəki rəhbər vəzifələrdən ən azı birinin Qarabağ müharibəsi veteranı, Qarabağ qazisinin tutması çox yaxşı olardı. Qarabağ qaziləri içərisində də ali təhsilli, təcrübəli və xüsusən də Qarabağ müharibəsi iştirakçılarının ağrılarına, sosial problemlərinə kifayət qədər bələd olan kadrlar var. Vaxtaşırı Qarabağ müharibəsi iştirakçıları, veteranlarının sayı, yaxud mənzil, avtomobil paylanılması ilə bağlı mübahisələr ortaya çıxır. Bu mənada Qarabağ müharibəsinin iştirakçısı olmuş bir nümayəndənin rəsmi strukturda təmsilçiliyi yaranmış mübahisələrin dərhal araşdırılmasında da mühüm rol oynaya bilər".

**E.Paşasoyun sözlərinə görə, Qarabağ qazilərinin müalicəsi ilə bağlı yaranan problemlərin operativ şəkildə həlli üçün də qazilərin bir nümayəndəsinin səlahiyyət sahibi olması baş verə biləcək faciəvi halların qarşısının alınması baxımından önəmlidir:** "Düzdür, dövlət səviyyəsində keçmiş döyüşçülərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların pulsuz müalicəsi və s. bağlı xeyli işlər görülür. Lakin məsələlərin operativliyini təmin etmək baxımından bu kateqoriya təmsilçisinin rəsmi statusda fəaliyyəti tam məntiqli olardı. Namizədlərə gəldikdə, Qarabağ uğrunda canlarını fəda etməkdən çəkinməyən bu insanların hər biri o posta layiqdir. Ancaq mən illərdir ki, Qarabağ Qazilər Birliyinin sədri Etimad Əsədovun, qurumun mətbuat xidmətinin rəhbəri, dəyərli həmkarımız Rey Kərimoğlunun öz səngər yoldaşlarının problemlərini həll etmək üçün fədakarlıqlar etdiklərinin şahidiyəm. Onlar bu sahənin uzmanlarıdır artıq. Bu mənada onların rəsmi qurumda təmsilçiliyi həm qazilərin problemlərinin həlli, həm də Azərbaycan dövlətinin öz döyüşçülərinə dəyər verməsi baxımından çox ciddi addım olardı".

**Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı** da Zahid Orucun təklifini dəstəklədi: "Zahid Orucun təklifinin mahiyyəti odur ki, Qarabağ əlili və müharibədə döyüşənlərin problemlərini başa düşməsi baxımından onlardan birinin nazir müavini olması çox vacibdir. Ona görə də belə bir təklif səsləndirilib. Dünyanın bir çox ölkəsində belə insanların sosial qurumlarda təmsil olunması təcrübəsi var. Biz bu təklifi dəstəkləyirik. Qarabağ müharibəsi iştirakçısının orada olması bu qrupdan olan insanların problemlərinə həssas yanaşılması deməkdir. Bu o demək deyil ki, hazırda nazirliyin rəhbərliyi Qarabağ əlillərinin problemlərinə baxmır, onlara cavab vermir. Nazirlikdə bu məsələlərə həssas yanaşılır. Ancaq hər halda millət vəkili bunu deməklə həmin sosial qrup daha çox diqqət artırılmasını nəzərdə tutur".

**Qarabağ qazisi Rey Kərimoğlu da deputatın təklifini müsbət qarşıladığını bildirdi:** "Mən Zahid Oruca təşəkkürümü bildirirəm ki, son zamanlar orada şəhid ailələrinin, Qarabağ əlillərinin sığorta pulu məsələsini Milli Məclisdə qaldırır. Bu təklifi də çox yerində deyilmiş bir təklifdir. Əslində Qarabağ əlillərindən prezidentin də müşaviri olmalıdır, o sahəyə aid olan nazirlərin müavinləri arasında da qazilərdən bir nümayəndənin olması yaxşı bir hal olardı. Bu çox düzgün bir təklifdir. Bu tam olmasa da, müəyyən həddə Qarabağ əlillərinin, şəhid ailələrinin problemlərinin həllinə dəstək ola bilər. Mən hesab edirəm ki, bu vəzifəyə Qazilər Birliyinin sədri Etimad Əsədov, Firidun Məmmədov də digərləri layiqdir".

**Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov** da müavinlərindən birinin əlil olması barədə deputatların təklifinə münasibət bildirib. "APA-Economics"in xəbərinə görə, nazir deyib ki, əlilliyi olan şəxslərə ayrıca bir kateqoriya kimi baxılmasının əleyhinədir: "Bu, yanlış bir addım olardı. Əgər hansısa bir əlilliyi olan şəxs həmin səviyyəyədək yetişə bilərsə, bu, təmin oluna bilər. Nazir müavininin təyinatını ölkə başçısı həyata keçirir. Məncə, bu məsələlərə qarışmaq doğru deyil. *Yaxşı, mən də sual ünvanlayıram: niyə parlament seçkilərində əlilliyi olan şəxsin namizədliyini irəli sürmürsünüz?!* Əlilliyi olan şəxslərə ayrıca kateqoriyadan olan insanlar kimi baxmaq doğru deyil. O şəxslərin öz qabiliyyətlərinə, bacarıqlarına uyğun işlə təmin olunmasına nail olmalıyıq. Bir dönəm bir ifadə dəbə düşmüşdü, hamı deyirdi ki, hər bir qurumda bir qadına vəzifə verilməlidir. Bu, yanlış yanaşmadır. Çünki hər kəs bərabərdir, bərabər hüquqlara malikdir. Hər kəs öz bacarığına uyğun vəzifə tutmalıdır. Əlillər bizlərdən biridir. Onlara fərq qoyulmamalıdır. Böyük Britaniyanın Leyboristlər partiyasının bir neçə aparıcı üzvü əlildir. Onlar parlament seçkilərində qalib gəldikdən sonra bəziləri hətta nazir vəzifəsini də tutdu. Onlar səlahiyyət müddəti boyu layiqincə çalışdılar. Biz 2014-cü ildə BMT-nin Əlillərin Hüquqlarının Müdafiəsi Komitəsində hesabatımızı təqdim etdik. Bu komitənin 18 üzvünün hər biri əlilliyi olan şəxsdir. Onlar çox gözəl bir söz dedi: "Bizi özünüzdən ayırmayın, biz də sizlərdən biriyik. Mənim əlim və ya ayağım yoxdursa, o demək deyil ki, sən məndən üstünsən. İnsanı insandan üstün edən onun beynidir, beyninin məhsuludur. Əgər mən səndən yaxşı düşünürəmsə, deməli, səndən üstünəm". Mən bu fikirlərlə tamamilə razıyam".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağda başlayan erməni təlimlərinin pərdəarxası

## Rusiya XİN başçısının bölgəyə səfərindən sonra işğalçı ölkənin təxribatlarını davam etdirməsi Moskvanın sülhməramli missiyasını şübhə altına alır; **politoloq:** "Əslində nə "Lavrov planı", nə də "Putin planı" mövcuddur..."

**İşğalçı Ermənistanın sülh danışıqlarına nə dərəcədə "sədaqətli olduğu" ötən gün bir daha təsdiqini tapdı. Belə ki, Ermənistan ordusu Azərbaycanın işğal altındakı Cəbrayıl və Füzuli rayonlarının ərazisində taktiki hərbi təlimlər keçirib. Bununla da işğalçı ölkə Azərbaycanı savaşa çəkməkdən ötrü növbəti təxribatçı addımını atmış olub.**



Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, təlimlərdə tank hissələri iştirak edib. Xatırladaq ki, bundan əvvəl ermənilər daha çox Ağdam ərazisində hərbi təlimlər keçirməyə üstünlük verirdilərsə, artıq təlim ərazisini genişləndiriblər. Özü də bu azğınlıq Serj Sərkisyanın Brüssel sammitində iştirak etdiyi zaman baş verib. Hansı ki, bəzi erməni mənbələri Ermənistan prezidentinin "Şərq Tərəfdaşlığı" sammitində Qarabağı Azərbaycan ərazisi olaraq tanıyacağı barədə hay-küylü xəbərlər yayıblar.

Məntiqlə düşmən ölkə ən azı bu günlərdə daha ehtiyatlı davranmalı, gərginlik yaradan hansısa addımlardan çəkinməli idi. Ancaq görünür İrəvanın, həmçinin Bakının Avropa təşkilatı ilə əməkdaşlığı istiqamətində addımlar atmağa qərar verdiyi bu dövrdə bir sıra dairələr, o cümlədən Kreml ciddi şəkildə narahatdır. Əgər belə olmasaydı, Ermənistan, həmçinin Dağlıq Qarabağdakı separatçılar öz ağalarının iradəsindən kənara çıxıb gərginliyi tətikləyən addımlar atmazdı.

Bu yerdə xatırladaq ki, 2016-cı ilin aprel döyüşləri də Azərbaycan və Ermənistan prezidentlərinin ABŞ-da səfərdə olduğu zaman başladı. O zaman bu iki ölkənin Vaşinqtonla əməkdaşlığı da şimal qonşumuzu qane etmirdi. Bu mənada ermənilərin təxribatı təsadüfə bənzəmir. Yeri gəlmişkən, Rusiya XİN başçısı Sergey Lavrovun Bakı və İrəvana səfərinin də Qarabağ anlaşmasına hazırlıqdan daha çox, Rusiyanın Avropanın paytaxtında gözlənilən zirvə kontekstindən yanaşanlar daha çox idi. Elə Rusiyadan gələn bəyanatların növbətçi xarakter daşıması da bunu göstərir.

"Biz çox istəyirik ki, bu problemli məsələ nizamlansın. Nə qədər tez olsa, bir o qədər yaxşıdır. Təbii ki, dəfələrlə barəsində danışdığımız əsaslar üzərində". Bu sözləri Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən növbəti brifinqdə Dağlıq Qarabağ münaqişəsinə toxunarkən səsləndirmişdi. Diplomatın sözlərinə görə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsi Rusiya üçün prioritet mövzudur. Ancaq ortada bir yenilik yoxdursa, hansı prioritetdən söhbət gedə bilər?

Bu arada xəbər yayıldı ki, İrəvana səfəri zamanı Rusiya XİN başçısı Sergey Lavrovun Ermənistan Prezidenti Serj Sərkisyanla bağlı qapılar arxasında gərgin danışıqları olub. Ermənistan mətbuatı iddia edib ki, Lavrov Sərkisyana Kremlin 5 yox, 2-3 rayonun Azərbaycana qaytarılmasına razı olduğu haqqında informasiya verib. Guya bu da Azərbaycanın Avrasiya İttifaqına üzvlükdə sürpriz olmalıdır. "Mənbələrimiz təsdiq edir ki, Sərkisyan Lavrovla ağır danışıqlardan sonra ciddi düşünüb. İrəvanın müqavilənin imzalayıb-imzalamayacağı haqqında Sərkisyanın qərarını biz Brüsseldə görəcəyik" - erməni mənbəyi qeyd edib.

**Dünən isə Ermənistan XİN başçısının müavini S.Köçəryan növbəti sərsəm açıqlamalar səsləndirib və deyib ki, Azərbaycan Avrasiya Birliyinə daxil olmaq üçün Ermənistanın blokadasına və hərbi təhdidlərinə son qoymalıdır.** Göründüyü kimi, həyasızlığın son həddidir. Bu, o deməkdir ki, Lavrovun səfərində Azərbaycanını Avrasiya Birliyinə üzvlüyü məsələsi daha çox önəm kəsb edib, nəinki işğala son qoyulması. Mümkündür ki, Lavrov 2-3 rayonun azad olunmasının mümkünlüyü barədə danışsın. Bu, faktdır ki, ermənilərin nəzarətindəki ətraf rayonların hamısının azad olunmasında heç Rusiya da maraqlı deyil.

"Daha öncədən proqnozlaşdırdığım kimi, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun bölgəyə səfəri nəticə vermədi. Sergey Lavrov Bakıda və İrəvanda münaqişənin həllini sürətləndirəcək heç nə demədi. Tam əksinə, söylədikləri münaqişənin həllinin uzanmasına xidmət edirdi". **"Atlas" Araşdırmalar və Qərbi Kaspi Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bunu "Yeni Müsavat"a açıqlaması zamanı söylədi.

Politoloq Rusiya XİN başçısının səfəri zamanı diqqətçəkən məqamları xatırladtı: "Birincisi, Sergey Lavrov işğal altındakı torpaqların boşaldılmasıyla bağlı BMT qətnamələri barədə Bakıda bunu dedi ki, bu istiqamətdə səyləri davam etdirmək lazımdır. Halbuki, BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğaldan azad olunmasıyla bağlı 1990-cı illərin əvvəllərində qəbul etdiyi 4 qətnamə yekdilliklə qəbul olunub və icrası məcburi xarakter daşıyır. İkincisi, Sergey Lavrov İrəvanda dedi ki, münaqişənin həllini bəndlərə bölmək doğru deyil, problemin həllinə kompleks yanaşmaq lazımdır. Bu elə rəsmi İrəvanın mövqeyi ilə üst-üstə düşür. Onlar da münaqişənin həllinin paket həllini dəstəkləyirlər. Yeni Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması Dağlıq Qarabağda keçiriləcək referendumla əlaqələndirilir".

**Ancaq E.Şahinoğlu qeyd etdi ki, Azərbaycan bu varianta razı deyil:** "Rəsmi Bakı münaqişənin həllində mərhələlilik prinsipini dəstəkləyir. Lavrov isə bu barədə bir kəlmə də demədi. Rusiyanın xarici işlər naziri Bakıdakı görüşləri sırasında bircə dəfə də "Azərbaycanın ərazi bütövlüyü" ifadəsini işlətmədi. Rusiya siyasətçiləri eyni probleme fərqli prizmalardan yanaşırlar. Rusiya xarici işlər naziri Cənubi Qafqaz ölkələrinə səfər etdiyi günlərdə Rusiyanın Federasiya Şurasının spikeri Valentina Matviyenko Serbiyada səfərdə idi. Matviyenko Serbiyanın prezidenti Aleksandr Vuçiçlə görüşündə dedi ki, Rusiya Kosovo məsələsində birmənli olaraq Serbiyanın ərazi bütövlüyünü dəstəkləyir. Bununla Rusiya separatizm məsələsində Serbiya ilə Azərbaycan arasında fərq qoyduğunu göstərdi".

**Politoloq Sergey Lavrovun Moskvaya qayıdışından sonra erməni mətbuatında yayılan məlumatların da məqsədli xarakter daşıdığını vurğuladı:** "Belə xəbərlər yayıldı ki, guya Moskva Dağlıq Qarabağ ətrafındakı 5 rayonun əvəzinə 2 və ya 3 rayonun boşaldılmasını istəyir. Bunun da adını qoyublar "Putin planı". Əslində nə "Lavrov planı", nə də "Putin planı" mövcuddur. Sadəcə, Rusiya rəsmilərinin münaqişənin həlliylə bağlı parça-parça şəklində müəyyən təklifləri var. Bu təkliflər isə Azərbaycanın maraqlarına cavab vermir. Bu arada Türkiyə prezidenti Rəcəb Təyyub Ərdoğan ikinci dəfə eyni cümləni təkrarladı: "Dağlıq Qarabağ münaqişəsinin həlli Vladimir Putindən asılıdır".

**E.Şahinoğlu hesab edir ki, Ərdoğan bununla hamıya iki mesaj göndərir:** "Birinci mesajın əhəmiyyəti odur ki, Putin istəsə, münaqişəni həll edə bilər, sadəcə, indiki mərhələdə Kremlı sahibinin bu münaqişəni həll etməyə marağı yoxdur. İkinci mesajın əhəmiyyəti isə odur ki, münaqişə və onun həlli Rusiyanın tam nəzarəti altındadır, ATƏT və Minsk Qrupu, o cümlədən Türkiyə təkbaşına heç nə edə bilməz. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında son günlər intensivləşən səfərlər və danışıqlar heç bir nəticə vermədi. Bu vəziyyət Azərbaycanı qane etmir. Bu, o deməkdir ki, cəbhə bölgəsində gərginlik azalmayacaq. Tam əksinə, Azərbaycan ordusunun snayperləri və kəşfiyyat qrupları işğal altındakı torpaqlarda yerləşən postları neytrallaşdırmaqda davam edəcəklər. Böyük dövlətlər bölgədə müharibə imkanlarının qarşısını almağa çalışsa da, Azərbaycan ordusunun işğalçı ordunun itkisinin artmasına mane olmurlar, mane ola da bilməzlər. Hazırkı mərhələdə əsas məqsəd işğalçı dövlətin resurslarını zəiflətməkdir. Bu, elə belə də davam edəcək".

İndi bütün nəzərlər Brüssel zirvəsinə yönəlib. Azərbaycan prezidenti öncədən bəyan etmişdi ki, Şərq Tərəfdaşlığı Azərbaycanın ərazi bütövlüyü məsələsində birmənalı mövqe ortaya qoymalıdır. Baxaq, görək Avropanın aparıcı qurumu işğala dəstək verəcək, yoxsa onu cəzalandırmaq xətti yürüdəcək. Bakının növbəti addımları atması, həmçinin, Ermənistanın sülhə vadar edilməsi baxımından bu mövqe çox önəmlidir.

**Hər halda Brüssel sammitinin keçirildiyi zaman işğalçı Ermənistan ordusunun Azərbaycan torpağında təlimlərə başlaması sadə məsələ deyil, həm də Avropa Birliyinə güc nümayişidir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 246 (6860) 25 noyabr 2017

# Tarixçinin Qaraqoyunlu və Ağqoyunlu dövlətinin olmaması fikirləri mübahisə yaratdı

**Tarixçi Kamran Əsədovun teleqraf.com-a verdiyi müsahibəsində Azərbaycanın keçmiş tarixi ilə bağlı səsləndirdiyi bəzi fikirlər mübahisə doğurub. Tarixçinin əsas diqqətçəkən açıqlamaları XV-XVI əsrlər tariximizlə bağlıdır. O, həmin tarixdə Qaraqoyunlu və Ağqoyunlu adında Azərbaycan dövlətlərinin olmadığını bildirib.**

**Sitat:** "Təəssüflər olsun ki, XIX əsrə qədər bizim müfəssəl tarix kitabımız olmayıb. İlk dəfə olaraq Abbasqulu ağa Bakıxanov bunu etdi. Sonra isə 70 il sovetlərin tərkibində olmağımız bizim tariximizdə ciddi problemlər yaratdı. Bu daha çox dövlətlərin adları və siyasi idarəçiliyi ilə bağlı oldu. Qaraqoyunlu və Ağqoyunlu adlı XV-XVI əsrlərdə dövlət olmayıb. Həmin dövrün tarixindən bəhs edən "Tarixi-Türkmaniyyə" və "Tarixi sultan Qütbşahi" əsərlərində bu dövlətlərin adları Baharlı və Bayandurlu kimi qeyd olunur. Onların bayraqlarında qoyun təsviri də olmayıb. Qoç başı əks olunub. Bu da onların mübariz, döyüşkən olması ilə əlaqədardır. Sadəcə olaraq sovetlər dövründə tariximizə kinli münasibət nəticəsində bu ad formalaşdı. Çünki bu dövlətlər mövcud olanda rusların mərkəzləşmiş dövlətləri yox idi və bizim tariximizə qısqanclıqla yanaşırdılar".

## Dilavər Əzimli: "Bəzi mənbələrdə dövlətin adı Bayanduriyyə yazılsa da, lakin Ağqoyunlu adı mənbələrdə öz əksini tapıb"



K.Əsədovun dedikləri birmənalı qarşılanmayıb. Onun fikirlərini tənqid edənlər həqiqət axtaranlardan qat-qat çoxluq təşkil edirlər.

**Tarixçi-alim Dilavər Əzimli** "Yeni Müsavat"a açıqlamasında bu məsələlərin vaxtaşırı gündəmə gəldiyini bildirdi: "Mənbənin sovet dövrünə, eləcə də, ondan əvvəlki və sonrakı dövrlərə heç bir aidiyyəti yoxdur. Bu dövrü Azərbaycanda çox görkəmli alimlər araşdırıblar. Bunlar fars və ərəb dillərini çox mükəmməl bilirlər. Onlar vətənpərvər alimlər olublar. Bunların sovet dövrünə heç bir aidiyyəti yoxdur. Düşünürəm ki, bu cür fikirlərin meydana çıxmasına səbəb qoyunu bəyənməməkdən irəli gəlir. Hesab edirəm ki, bu çox yanlış bir düşüncədir. Türkmən elatında qoyun yaxşı bir heyvan sayılıb. Türkmən, türk həyatı qoyunçuluqla bağlı olub. Orta əsrlərdə Avropada da qoyunçuluq inkişaf etmişdi. Hətta İngiltərədə demişdilər ki, qoyunlar adamları "yeyir". Ümumiyyətlə, qoyun ən çox fayda verən heyvandır. Türkmən həyatında elə idi ki, kiçik buynuzlu heyvanla məşğul olanlar iribuynuzlu ilə məşğul olmurdular, eləcə də, iribuynuzlu heyvanla məşğul olanlar. Qaraqoyunlu və Ağqoyunlu tayfalarının həyatında qoyunçuluq geniş yayılmışdı. Qaraqoyunlu dövlətini yaradanlar Barani tayfalarıdır. Mənbələrdə Qaraqoyunlu adı da, Ağqoyunlu adı da öz əksini tapır. Ağqoyunlular Bayandur nəslindədirlər. Bəzi mənbələrdə dövlətin adı Bayanduriyyə yazılsa da, lakin Ağqoyunlu adı mənbələrdə öz əksini tapıb. Bayraqların heç birində qoç işarəsi yoxdur. Bu, yalan ifadədir. Belə fikirlər reallığı əks etdirmir. Çünki hər iki dövlətin bayrağı Topxanada saxlanılır. Kim istəsə, gedib maraqlana bilər. Sadəcə həmin dövlətlərin bayraqları sonradan uydurulub, qoç işarəsi olduğu deyilib. Bu məsələ ilə məşğul olanlar heç olmasa ərəb və fars dillərini bilməli, yaxud həmin dövrün tədqiqatçısı olmalıdırlar. Ondan sonra bu cür ittihamlar irəli sürə bilərlər. İndi sanki Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin bayraqlarının üzərindəki qoyun təsvirindən utanırlar. Avropada təsərrüfat və heyvan adları ilə bağlı çoxsaylı dövlətlərin adlarını çəkə bilərəm. Bunlar bir ittifaq olublar, bura daxil olanlar da türk tayfaları olublar. Onların yaratdığı dövlət türk dövlətidir. Bu dövlətlər Azərbaycan coğrafiyasını bir araya gətirən dövlətlər olublar. Bu cür yanaşma düzgün deyil. Bəyəm bu dövlətlərin adlarının Qaraqoyunlu və Ağqoyunlu olması tariximizə ləkə gətirir? Tayfaların adları yazıla bilər, amma dövlət olaraq bunların adı Qaraqoyunlu və Ağqoyunludur".

❑ **Cavanşir ABBASLI**

# Ölkəni tərk edən xanım aparıcılar...

## Əksəri ANS-in keçmiş işçiləridir

**ANS-in keçmiş aparıcısı Tünzalə Rafiqqızı Almaniyadan sığınacaq istəyib. Bu barədə ötən gün aparıcının özü "Facebook" səhifəsində məlumat yayıb:**

"Əziz dostlar! Son 2 gündə mənə ünvanlanan coxsaylı suallara cavab olaraq, mən Zeynalova Tünzalə Rafiq qızı sizinlə bir məlumatı paylaşmaq istəyirəm. Son dövrdə baş verən proseslər, peşə fəaliyyətimə olan təzyiqlər və sonda qızım Zəhranın səhhətində yaşanan ciddi problemlər məni Almaniyaya gəlib bu hökumətdən sığınacaq istəməyə vadar etdi. Doğma torpaqdan, yurd-yuvadan ayrılmaq çətin olsa da, mən buna məcbur idim. Atamın məzarından torpaq götürüb ölkəni birdəfəlik tərk etdim! Mən 40 illik həyatımı, 22 illik karyeramı sıfırladım! Mənən intihar etdim! Allahdan özümə və mənim vəziyyətimdə olanlara səbr diləyirəm".

Xatırladaq ki, Tünzalə Rafiqqızı uzun müddət ANS-də redaktor, "Hesab vaxtı" verilişinin aparıcı-müxbiri işləyib. ANS-in efiri bağlandıqdan sonra aparıcı "Space TV"-də xəbər xidmətinin müdir müavini vəzifəsində çalışmışdı. Lakin 3 aydan sonra onun vəzifə səlahiyyətlərinə xitam verilmişdi.



Tünzalə Rafiqqızı



Qənirə Ataşova

Qeyd edək ki, son aylarda bir-birinin ardınca bir neçə xanım aparıcı ölkəni tərk edib. Onların ölkəni tərk etmə səbəbləri isə müxtəlifdir. Məsələn, 3 ay öncə **ANS-in qalmaqallı aparıcısı Qənirə Ataşova** Amerika Birləşmiş Ştatlarına (ABŞ) köçdü. Teleaparıcı sosial şəbəkədə məlumat yayaraq ABŞ-a köçməsini bu ölkədə təhsil alması ilə bağlı olduğunu bildirmişdi.

Onun ardınca isə **ANS-in digər keçmiş aparıcısı Elnarə Təhməzova** da ölkəni tərk edərək İngiltərəyə köçdü. Aparıcı ölkəni hansı səbəbdən tərk etdiyini açıqlamayıb. Xatırladaq ki, E.Təhməzova 2011-15-ci illər ərzində ANS-in tanınmış simalarından biri olub. Zamanında "İncə maraqlar" verilişinin aparıcısı olan E.Təhməzova həmin verilişdəki hicab qalmaqalına görə şirkətdən qovulmuşdu.

**ANS-in gözəl simalarından biri olan Nigar Mahmudova** da son vaxtlarda ölkəni tərk edən xanım aparıcıların siyahısındadır. Qeyd edək ki, əsl peşəsi modelyer və rəssam olan N.Mahmudova jurnalist fəaliyyətinə ANS-in efirində başlamışdı. O, 2016-cı ilə qədər adıçəkilən televiziyada "Düz bucaq", "Salam Azərbaycan", "Səhər" və "Xəbərçi" verilişlərinin aparıcısı olmuşdu. Məlum səbəbdən ANS şirkəti bağlanıldıqdan sonra N.Mahmudova heç bir televiziya ekranında görünmədi. Bir neçə ay öncə isə onun ölkəni tərk edərək birdəfəlik Türkiyəyə köçdüyü məlum oldu.

**Teleaparıcı Aynur Talıbova da bir müddət öncə ABŞ-a köçüb.**

❑ **Xalidə GƏRAY**

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda**
**Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.

# Həmkarlar təşkilatlarından üzvlük haqqının yığılması qaydası dəyişir

**Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin bu gün keçirilən iclasında "Həmkarlar İttifaqları haqqında", "Məşğulluq haqqında" qanunlara və Əmək Məcəlləsinə dəyişikliklər müzakirəyə çıxarılıb.**

APA-nın məlumatına görə, iclasda komitə sədri Hadı Rəcəbli bildirib ki, "Həmkarlar İttifaqları haqqında" qanuna edilən dəyişikliyə əsasən, artıq sırf Həmkarlar İttifaqına üzv olan təşkilatlar üzvlük haqqı yığıb ödəyə biləcək.

Belə ki, indiyədək quruma üzv olmayan təşkilatlardan üzvlük haqqının yığılması məcburi olmayacaq. "Məşğulluq haqqında" qanuna da buna uyğunlaşdırıcı dəyişiklik edilir. Əmək Məcəlləsinə isə texniki dəyişiklik müzakirəyə çıxarılıb.

Hər üç layihə plenar iclasa tövsiyə olunub.

# Bir ailənin 4 üzvünü maşınla vurub qaçan keçmiş məhkum tutuldu

**Bakıda bir ailənin 4 üzvünü avtomobillə vuraraq hadisə yerindən qaçan sürücü saxlanılıb. Daxili İşlər Nazirliyindən "Report"a verilən məlumata görə, noyabrın 23-də Sabunçu rayonu Zabrat qəsəbəsi ərazisində yolu keçən paytaxt sakinləri Azər Əhmədov, həyat yoldaşı Olqa və iki azyaşlı övladı müəyyən edilməyən avtomobillə vurulub.**

Qəzanı törədən sürücü piyadalara heç bir yardım göstərmədən hadisə yerindən qaçıb. Yaralılar digər şəxslərin köməkliyi ilə xəstəxanaya yerləşdirilib, hazırda vəziyyətləri qənaətbəxşdir.

Qəza barədə Sabunçu Rayon Polis İdarəsinə (RPİ) məlumat daxil olan kimi istintaq-əməliyyat qrupu hadisə yerinə çıxıb, müvafiq müayinələr aparılıb. Həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisənin "VAZ 2107" markalı avtomobillə törədildiyi müəyyən edilib və dərhal görülmüş tədbirlərlə Sabunçu rayonunun Kürdəxanı qəsəbə sakini, əvvəllər məhkum olunmuş Tofiq Qədirov şübhəli şəxs qismində saxlanılaraq istintaqa təqdim olunub. Onun "VAZ 2107" markalı nəqliyyat vasitəsi evinin həyətindən aşkar edilərək müvəqqəti mühafizə olunan dayanacağa yerləşdirilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Kafedə kütləvi dava: bir nəfər bıçaqlandı

**Bakının Nəsimi rayonunda düşən kütləvi dava nəticəsində bir neçə nəfər xəsarət alıb. "Report" xəbər verir ki, Səməd Vurğun küçəsində yerləşən kafelərin birində mübahisə zamanı 1976-ci il təvəllüdlü Alıyev Fərid Teymur oğlu bıçaqlanıb. Yaralını 1972-ci il təvəllüdlü tanışı Fətəliyev İlqar Qərib oğlu xəstəxanaya yerləşdirib. Lakin o da hadisə yerinə qayıdan zaman döyülüb. Bu zaman ağır xəsarət alan şəxs xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı Nəsimi Rayon Polis İdarəsinin 20-ci Polis bölməsinin əməkdaşları araşdırma aparır.

**Bu günlərdə ölkədə zəlzələ təhlükəsi geniş yayılıb. İnsanlar zəlzələ ocaqlarının qısa müddətdə "yaxınlaşacağı" və bu təhlükə ilə üzləşəcəkləri qorxusunu yaşayırlar. Və adətən bu kimi situasiyalarda insanların bir-birinə və özünə daha çox verdiyi sual da zəlzələyə hazırlıq dərəcəsi ilə bağlı olur. Təşvişə düşməmək, vəziyyətdən düzgün çıxış yolu tapmaq üçün nələr edilməlidir? Özünü və ailə üzvlərini buna hazırlamaq üçün maarifləndirmə hansı səviyyədə, necə aparılmalıdır?**

# Zəlzələ qapını döyürsə... nə etməli?



## Təbii fəlakətdən qorunmağın yolları, ilginc məsləhətlər...

**Zəlzələdən öncə nələr edilsin?**

Təbii ki, öncə rəsmi bildirişlər barədə. Fövqəladə Hallar Nazirliyinə aid rəsmi saytda bununla bağlı dolğun məlumatlar yer alıb. Mütəxəssislərin rəyi və yönləndirmələri əsasında hazırlanan bu bildirişlərdə insanların sözügedən situasiyalarda davranışlarının ardıcıllığı yer alıb.

Bütün məlumatlarda qeyd olunur ki, insanlar zəlzələ barədə ailəsində söhbətlər aparmalı, təhlükəsizlik məşqləri keçirməlidir. Bundan başqa, birlikdə evdə təhlükəsiz yer təyin etmək, kitab rəflərini, çilçıraq və dolabları divara, tavana və yaxud döşəməyə möhkəm bərkitmək, zəhərli kimyəvi və tezalışan mayeləri təcrid edilmiş təhlükəsiz yerdə saxlamaq, yumşaq mebeli (divan-kreslo) və çarpayını pəncərə önündə yerləşdirməmək və ya pərdənin qalın materialdan olmasını təmin etmək lazımdır. Digər məsləhətlər isə aşağıdakılardır:

- içində müəyyən qədər ərzaq və su, tibb çantası, vacib sənədlər, pul, fənər və isti paltar olan ehtiyat çantasını həmişə əl altında saxlayın;

- bütün ailə üzvləri qaz, su və elektrik enerjisinin haradan, necə bağlanıb-söndürüldüyünü bilməlidir;

- evin dəhliz və çıxış yerlərini artıq əşyalardan təmiz saxlayın.

**Cəmi 10-15 saniyə vaxtınız var**

Mütəxəssislər eyni zamanda məsləhət görür ki, ilk təkanı hiss etdikdə binanı təhlükəsiz tərk etmək üçün cəmi 10-15 saniyə vaxtınız olduğunu bilmək lazımdır. Evdən çıxarkən ehtiyat çantası və mobil telefonunuzu götürmək, qaz, su və elektrik enerjisini ümumi şəbəkədən söndürmək, binanı tərk edib açıq və təhlükəsiz yerdə dayanmaq, binanı 10-15 saniyə ərzində tərk etmək mümkün deyilsə, evdə qalmaq, pilləkən və lift daha tez sıradan çıxdığı üçün bunlardan istifadə etməmək, təşvişə düşüb yüksək mərtəbədən tullanmamaq, evdə təyin etdiyiniz təhlükəsiz yerə (yükdaşıyan divar və beton sütun) keçmək, dəmir ayaqlı masa varsa, onun altına girmək, diz üstə çökmək və ya böyrü üstə uzanıb ayaqları bükmək və əllərlə başın arxa hissəsini qucaqlayaraq qorunmaq lazımdır.

**Zəlzələ sizi küçədə haqlayıbsa:**

- bina, elektrik dirək və xətləri, sıldırımlı yerlər, körpülərdən uzaq durun, dərhal açıq sahəyə çıxın;

- əgər avtomobillə açıq sahədə hərəkət edirsinizsə, onu dayandıraraq pəncərələri bağlayıb, içində təkanların bitməsini gözləyin;

- əgər avtomobillə binaların yaxınlığında hərəkət edirsinizsə, dərhal onu tərk edib, açıq sahəyə çıxın.

Bu situasiyada həssas yanaşacağımız bir digər məqam da zəlzələdən sonrakı mərhələdir. Mütəxəssislər deyir ki, zəlzələ sizi bina xaricində haqlayıbsa və dağıntı baş veribsə, zərərçəkmişlərə kömək edib, onlara ilkin yardım göstərmək vacibdir. Dağıntı olan yerlərə yaxınlaşmaq olmaz. Yaşadığınız binaya daxil olmaq üçün əvvəl şəraiti dəqiq qiymətləndirib sonra qərar vermək lazımdır. Zədələnmiş binada qaz sızması ola bildiyindən açıq alışdırıcıdan (kibrit, alışqan) istifadə etmək olmaz. Zəlzələ sizi gecə vaxtı haqlayıbsa, kibrit və ya alışqandan deyil, fənərdən istifadə edin. Qaz, su və elektrik enerjisini ümumi şəbəkədən söndürərək binanı tərk edin. Kiçik yanğın ocağı varsa, onu öz qüvvənizlə söndürməyə çalışın. Yanğını müstəqil söndürmək mümkün deyilsə, uşaq, yaralı və əlillərə kömək etməklə təhlükəsiz bir yerə çıxın.

**Şkaflara bərk kilid taxın, onları yerə və divara bərk bağlayın**

Türkiyə saytlarının yazdığı göstərişlərdə isə daha ilginc məqamlar var. Belə ki, öncə yaşadığınız yerin zəlzələ təhlükəsi barədə məlumatları öyrənmək lazımdır. Ailə üzvləri arasında fövqəladə vəziyyətlərdə necə davranacağınız barədə danışın. Hər otaqda üstünüzə bir şeyin düşməyəcəyi sağlam bir yer seçin. Yerə yatmaq, başını qorumaq və nəyəsə dirsəklənməyi öyrənin, uşaqlarınıza da bunu öyrədin. Kitab şkafı, hündür mebel kimi asanlıqla aşa bilən əşyalar ilə ağır əşyaları divarlara və ya döşəməyə bərk bağlayın, tablo, qarderob kimi əşyaları sabitləşdirin və üstünüzə düşməyəcək şəkildə yerləşdirin.

İçinə qırıla biləcək əşyalarınızı qoyduğunuz şkaflarınıza bərk bir kilid taxın. Fövqəladə vəziyyətdə dərhal istifadə edə biləcəyiniz əl fənəri, radio və ehtiyat batareya, ilk yardım çantası və lazımi dərmanlarınızı öncədən çantaya qoyub, asanlıqla əldə edə biləcəyiniz yerdə saxlayın.

Hadisə baş verəndə binanın içindəsizsə sakit olun, təşvişə qapılmayın, cəsarətinizi toplayın və qaçmayın. Böyük bir zəlzələdə ayaq üstə dayanmanız, qaçmanız mümkün deyil. Çöməlin və ya döşəməyə yatın. Stoldan tutun və onunla birlikdə hərəkət etməyə hazır olun. Mövqeyinizi titrəmə dayanana qədər dəyişdirməyin. Bina içində qalın. Zəlzələ baş verən zaman liftdə olduqda çıxış düyməsinə basmalı və olduğunuz mərtəbədə lifti dayandırmalı və onu dərhal tərk etməlisiniz.

**Evin içində və çölündə... davranış qaydaları fərqlidir**

Yox, əgər binanın xaricində idinizsə, binalardan düşəcək əşyalar və şüşələrdən, elektrik xətlərindən uzaqda, etibarlı bir yerdə zəlzələnin bitməsini gözləyin. Maşın sürürsünüzsə və olduğunuz yer etibarlıdırsa, maşının içində qalın. Normal nəqliyyatdan mümkün qədər uzaqlaşın. Körpü və tunellərdən isə uzaq dayanın. Ağaclar, dirəklər və elektrik xətlərindən uzaqda qalmaq da sadalanan məsləhətlər sırasındadır.

Bərkidilməmiş və aşa biləcək əşyalardan, soba və su qızdırıcılardan, çox ağır olan və bir yerə bağlı olmadan dayanan əşyalardan (vitrinlər, şkaflar, rəflər və s.), mətbəx şkaflarının üst rəflərində dayanan ağır ya da qırıla biləcək əşyalardan, asılı dayanan (çilçıraq, güzgü, ağır çərçivəli şəkillər və s.) əşyalardan, yüksək ya da təhlükəli yerlərdə dayanan və qırıla biləcək qabların içində olan zəhərli maddələrdən uzaq dayanmaq lazımdır.

Evin içində etibarlı bir yerdə durmaq olmursa, o zaman pəncərələrə kürəyinizi döndərərək və ya aşa biləcək əşyalardan uzaqda kürəyinizi onlara tərəf döndərərək, yerə uzanmalı, yaxında olan yastıq, ədyal, paltar, kitab və s. ilə başınızı örtməli, bunlar da mümkün deyilsə, o zaman dirsəklərlə üzünüzü qorumaq üçün, əllərinizi başınızın arxasında birləşdirməli və qorunmağa çalışmalısınız.

**Zəlzələ çantanız varmı?**

Hələlik zəlzələ olmasa da, insanların içində bir qorxu, təlaş var. Ona görə də çox adam zəlzələ çantası hazırlamağın vacibliyi barədə düşünür. Ümumiyyətlə, zəlzələ çantasında nələr olmalıdır?

- Su
- Bir fənər və ehtiyat batareyalar
- İlk yardım çantası
- Enerji verən yeməklər
- Şəxsi və reseptli dərmanlar
- Bir neçə paltar
- Bir miqdar pul
- Qələm, kağız.

**Bu arada ilk yardım çantaları bir çox apteklərdə satılır. Tərkibindəki dərman və ilk yardım əşyalarının sayından asılı olaraq, onun qiyməti də dəyişir. İnternetdə tərkibində 91 ədəd ilk yardım əşyası olan çantanın 30 manata satılması barədə məlumat var. Bu əşyalara sarğı və bəzi dərman vasitələri ilə yanaşı, süni tənəffüs maskası, zəlzələ fiti, alüminium yanıq örtüyü, tibbi əlcək, ilk yardım əl kitabı daxildir.**

❑ **Sevinc TELMANQIZI**

# Bakı və Abşeronda zəlzələ ehtimalı - iki proqnoz



## Qurban Yetirmişli: "Paytaxtda və yarımadada zəlzələ ocağı yoxdur"
## Telman Zeynalov: "Gündə min dəfə də zəlzələ baş verə bilər, ancaq təşvişə düşmək lazım deyil"

**Noyabrın 24-də Saatlı rayonu ərazisində 3,2 bal gücündə zəlzələ baş verib. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən mətbuata verilən məlumata görə, yeraltı təkanlar yerli vaxtla saat 04:02:04-də qeydə alınıb. Ocağı 58 kilometr dərinlikdə yerləşən zəlzələ hiss olunmayıb.**

Ölkə ərazisində yeraltı təkanların hələ də davam etməsi bir sıra insanlarda müəyyən qədər qorxu yaradıb. Hətta paytaxtda özləri üçün "zəlzələ çantası" hazırlayanlar belə var. Biz də baş verən zəlzələnin paytaxtda və Abşeron yarımadasında ola bilmə ehtimalını öyrənmək üçün **Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli** ilə əlaqə saxladıq.

**Q.Yetirmişli Bakıda və Abşeron yarımadasında zəlzələ ocağının olmadığını dedi:** "Burada zəlzələ baş vermir. Ancaq zəlzələ təsiri Xəzər dənizində olan zəlzələ ocaqlarından gəlir. 2000-ci ildə Bakıda baş vermiş zəlzələ Xəzərin cənub şərqində olmuşdu. Bakı və Abşeronda baş verən həmin zəlzələnin təsiri idi".

**Q.Yetirmişli Azərbaycan ərazisində tarix boyunca baş vermiş zəlzələlərə gəlincə isə ilk zəlzələnin Gəncədə baş verdiyini dedi:** "Ölkəmizin zəlzələ tarixi 427-ci ildən başlayır. İlk zəlzələ Gəncədə olub. Həmin il Gəncə şəhərindən təqribən 25 km cənub-şərqdə 9 bal gücündə baş verən zəlzələ nəticəsində xeyli insan həlak olub. Azərbaycanın seysmoloji tarixinin əsası da həmin ildən başlanır. Bu zəlzələdə Gəncə bütünlüklə dağılıb. Bu barədə tarix, ədəbiyyat kitablarında da yazılıb. Şamaxı zəlzələsi sonra olub. 1667, 1669, 1671-ci illərdə ard-arda baş verən bu zəlzələlər Azərbaycan tarixində ən güclü təkanlardan sayılır. Bu üç zəlzələdə 100 mindən artıq insan həlak olub. 1667-ci ildə Şamaxıda baş verən zəlzələ isə 10 bala yaxın idi. Bu zəlzələlərin ən pis cəhəti o idi ki, onlar həm də çox ciddi ekoloji böhran yaratdılar. Zəlzələlər ekologiyaya ağır zərbə vuraraq, bir andaca Şamaxının xarabalığa çevrilməsinə, yaşıllıqların yerində uçurumlara səbəb oldu. 1669-cu ildə baş verən zəlzələ nəticəsində minlərlə ev dağıldı, 7 min nəfər insan bu dəhşətli fəlakətin qurbanı oldu, yüzlərlə bulaq quruду, meşələr isə yerin altına getdi. Yaşıllıqlar vadisi adlanan Şamaxı ekoloji baxımdan insan yaşaması mümkün olmayan bir xarabalığa çevrildi. Şamaxıda axırıncı zəlzələ isə keçən əsrin əvvəli 1902-ci ildə olub".

**Ekoloq Telman Zeynalov** Bakıda zəlzələ baş versə belə insanların təşvişə düşməsinə heç bir əsas olmadığını dedi: "İnsanları qorxudan məlumatlar yayılır ki, bu gün sabah İranda, İraqda, Türkiyədə baş verən zəlzələlər Bakıda da olacaq. Abşeron yarımadasında, Böyük Qafqazda, Kiçik Qafqazda, Talış dağlarında da. Cavan dağlarda mütəmadi olaraq zəlzələlər baş verir. Çünki burada hələ yer kürəsi formalaşmayıb. Ona görə də zəlzələ burada 4 bala qədər mütəmadi olacaq. Bu da qorxulu deyil. Bizim zəlzələlərlə məşğul olan, əllərini sinəsinə vuraraq biz alimik deyən şəxslər proqnoz verə bilmirsə, demək ki, onlar alim deyil. Camaatı qorxutmaq lazım deyil. Lap 5 bal gücündə zəlzələ olsa belə, heç bir bina sökülüb dağılmayacaq. İndi kim bina tikirsə, 8-9 bal gücündə zəlzələyə tab gətirə biləcək binalar tikir. 2000-ci ildə Bakıda 6.8 bal gücündə zəlzələ baş vermişdi. Hansı bina uçdu? Heç biri. Türkiyədə 5,7 bal oldu, bütün binalar uçdu. Çünki binaların zəlzələni gücünə uyğun tikmirlər. Bakıda yalnız köhnə beş mərtəbəli binalarda çat baş verdi vəssalam. Onu da düzəltdilər. Buna görə də təşvişə ehtiyac yoxdur. Gündə min dəfə də zəlzələ baş verə bilər. Bu o demək deyil ki, camaat evindən eşiyindən didərgin düşüb gedib çöllərdə qalsın".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 246 (6860) 25 noyabr 2017



## Pişik itdi, 6 il sonra tapıldı

Böyük Britaniyada Hloi ləqəbli pişik 6 illik ayrılıqdan sonra sahibəsinə qovuşub. 2010-cu ildə veterinara aparılan zaman sahibəsinin qucağından qaçan pişiyi tapmaq asan məsələ olmayıb. Belə ki, sahibəsi ilk vaxtlar onu maşın vurduğunu düşünüb və axtarmaqdan vaz keçib. Amma bu illər ərzində Hloiyə yaşlı bir qadın baxıb. Amma yeni sahibəsi yaşlanıb, pişiyə baxa bilməyəcək duruma çatanda yaxınları pişiyi heyvan sığınacağına qoyublar. Pişiyin mikroçipində gerçək sahibəsinin ad-soyadı qeyd olunduğu üçün onların qovuşması çətin məsələ olmayıb.

## 2 gündə 400 sms yolladığına görə həbs edildi

Britaniyanın "Red or Black" teleşousunun qalibi Natan Heyqman 4 ay azadlıqdan məhrum edilib. Buna səbəb onun keçmiş sevgilisinə cəmi 2 gün boyunca 400 sms yollaması olub. Berkşir qraflığı məhkəməsi kişinin bu hərəkətini dələduzluq kimi qiymətləndirib. Heyqmanın adı açıqlanmayan keçmiş sevgilisi deyib ki, təhdid məktubları ona hər 7 dəqiqədən bir gəlirmiş. Məhkəmə zamanı isə bəlli olub ki, kişi daha öncə də qarşı cinslə münasibətlərdə problemlər yaşayırmış. 2006-cı ildə onu keçmiş sevgilisini döyüb evini qarət etdiyinə görə 5 il azadlıqdan məhrum etmişdilər. 2011-ci ildə isə daha bir teleşouda qalib gələn Natan sevgilisinə taksin pulu olaraq 60 funt verərək, evdən qovub. "Red or Black" teleşousu İTV kanalında ekrana çıxır. Oyunun iştirakçılarına ruletkanın hansı sektorda qaldığını tapmaq tapşırılır. Heyqman mükafat qismində milyon funt udub.

# 30 ildir özünə ilan zəhəri vurdurur

İngiltərədə ilan zəhərini dərman olaraq istifadə edən və bunu 30 ildir davam etdirən Steve Ludvin, son 15 ildə qripə və soyuqdəyməyə yoluxmur. İlanlardan zəhər çıxarmanın çox çətin olduğunu deyən Ludvin bundan öncə bir neçə dəfə zəhərləndiyini, hətta bir dəfə qolunu itirmə təhlükəsi ilə üz-üzə qaldığını söyləyib. 51 yaşındakı Ludvinin qanındakı antikorlar isə Kopenhagendəki alimlər tərəfindən araşdırılır. Araşdırmanın nəticəsində ucuz və sağlam bir panzəhər hazırlanması hədəflənir.



## Acından ölməmək üçün vaxtı keçmiş ərzaqları yedi

Fransalı aktivist təkbaşına Atlantik okean boyu səyahət edib. Bu zaman isə istifadə müddəti keçmiş ərzaqlardan istifadə edərək, acından ölməməyə çalışıb. Parisdən Nyu-Yorka qədər davam edən səyahət 29 yaşlı Baptist Dyubanşenin 9 ayını əlindən alıb. Yanvar ayında o, ölkənin paytaxtını tərk edib, velosipedlə öncə Fransanı, sonra da İspaniyanı keçib. Mərakeşə çatanda isə aktivist qayıqla səfərinə davam edib. Bu qayıqla o, Atlantik okeanını keçib və Amerikanın Mayami şəhərinə çatıb. Mayamidən isə velosipedlə Nyu-Yorka gedib.

Yolboyu gənc səyyah acından ölməmək üçün istifadə müddəti keçmiş qidalardan istifadə edib. Məsələn, 2011-ci ildən xarab olmuş düyü, 50 il bundan qabaq alınan balla qidalanan səyyah bununla da vaxtı keçmiş məhsulu atmağın doğru olmadığını sübut etməyə çalışıb. Səyahətin dəniz qismində səyyahın radar-detektoru qırılıb. Bu alət onu yaxınlaşan gəmi barədə xəbərdarlıq edirdi. Bundan sonra o, hər 20 dəqiqədən bir yuxusunu alırdı ki, yaxınlaşmaqda olan hansısa gəmidən xəbərdar olsun. Dyubanşe danışıb ki, okeanda onun gözünə qarabasmalar görünüb.Adətən onun gözünə suda adamlar görünürdü və qulağına onların səsi gəlirdi. O, bunu yuxusuzluq və uzunmüddətli tənhalıqla əlaqələndirir.



## Qadınlar "həyatının kişisi" barədə ilk 3 dəqiqədə qərar verir

Qadınlar bir kişini gördükləri ilk üç dəqiqə ərzində onun "həyatının kişisi" olub-olmadığına qərar verir. İngiltərədə aparılan bir araşdırma göstərir ki, kişilərin baxışlarına, fiziki görünüşünə və geyiminə baxan qadınlar cəmi 3 dəqiqə ərzində ona bal verir. Araşdırmaya qatılan qadınların 88 faizi deyib ki, bir kişi barədəki ilk təəssüratları heç vaxt dəyişmir. Araşdırmadan o da bəlli olub ki, qadınlar özündən razı kişiləri də ilk üç dəqiqə ərzində müəyyənləşdirə bilir. Sorğu nəticəsində öz həmcinsləri ilə daha çox dostluq edən qadınların cinsi həyatının sönük olduğu üzə çıxıb.

## Qoroskop (25 noyabr)






**QOÇ** - Nahara qədər ciddi işlərinizin həllini təxirə salın. Sövdələşmə və müzakirələr üçünsə ümumiyyətlə, uğursuz ərəfədir. Bu gün yalnız ailə-məişət məsələləri ilə məşğul olmalısınız.



**BUĞA** - Praktiki işlərə aludə olmaqdansa nəzəri fəaliyyətə üstünlük verin. İdeal planlarınızın gerçəkləşməsində bunun rolu böyükdür. Ulduzlar maddi durumunuzun qənaətbəxş olacağını da istisna etmir.



**ƏKİZLƏR** - Mövcud durumunuzdan usanmaq yox, aktiv surətdə çıxış yolları aramalısınız. Əgər rahatlığınızın təminatı üçün başqa yol da tapa bilmirsinizsə, saat 16-ya qədər gözləmə mövqeyində durun.



**XƏRÇƏNG** - Böyük sınaqlar qarşısındasınız. Hər şey atacağınız addımlardan birbaşa asılı olacaq. Bu səbəbdən də bütün məsələləri dəfələrlə götür-qoy edib sonra qərar çıxarın. Hər adama da etibar etməyin.



**ŞİR** - Saat 9-10 aralığını nəzərə almasaq, qalan saatları normal tərzdə başa vuracaqsınız. Həyatınızda mühüm rolu olmayan, sizə qarşı soyuq münasibət bəsləməyən adamların şəxsi işlərinə müdaxilə etməsəniz, kimsə sizə qarşı qərəz nümayiş etdirməyəcək.



**QIZ** - Maliyyə zəminində çətinliyiniz mümkündür. Amma unutmayın ki, indi çoxları sizdən də pis yaşayır. Özünüzü kontrolda saxlayın, həmkarlarınıza qarşı təmkin göstərin. Səhhətinizə də fikir verməlisiniz.



**TƏRƏZİ** - Saat 11-13 aralığı daxilinizdə süstlük yaratsa da, sonrakı saatlarda ovqatınızda nəzərəçarpacaq dönüş yaranacaq. Deməli, narahatlığınız əridiyi üçün müəyyən işlər də görə biləcəksiniz.



**ƏQRƏB** - Ulduzların düzümü böyük irəliləyişlər astanasında olduğunuzu bəyan edir. Bu gün qarşıya qoyduğunuz vəzifələrin həllində kənardan dəstək alacağınız gözlənilir. Daxili səsinizə qulaq asın.



**OXATAN** - Bütün astroloji mənbələr ayın ən qalmaqallı gününü yaşayacağınızı göstərir. Əlxüsus da saat 16-18 arası hər bir davranış və ünsiyyətinizdə təmkinli olmalısınız. Sıxıntınız olsa, müqəddəs bir məkana gedin.



**OĞLAQ** - Bürcünüz üçün kifayət qədər aktiv gündür. Bir neçə cinahdan xeyirli gedişlər edə bilərsiniz. Belə məqamlarda etibar etdiyiniz dostlarınızın dəstəyindən yararlanmaqdan da çəkinməyin.



**SUTÖKƏN** - Daxili tərəddüd və nigarançılığınızı duyan Göy qübbəsi saat 14-dən başlayaraq istər qarşılıqlı münasibətlərdə, istərsə də maddi durumunuzda əsaslı dönüş yaradacaq. O vaxta qədərsə səbli olun.



**BALIQLAR** - Mübahisəli bir gün yaşayacağınız gözlənilir. Əlxüsus da iş yerində belə xoşagəlməzliklər daha çox qabara bilər. Əsəblərinizi cilovlamağa çalışın. Yalnız yaxşı şeylər barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kişilər maşınlarına daha az bağlıdır, nəinki qadınlar





Almaniyada qadın sürücülərin öz maşınları ilə qurduğu münasibətin kişilərinkindən daha fərqli olduğu üzə çıxıb. Cosmos Direkt adlı sığorta şirkəti tərəfindən aparılan anketlər zamanı hər səkkiz qadın sürücüdən biri öz maşınına ad qoyur. Bu isə qadın sürücülərin 13 faizinin öz maşınına ad və ya ləqəb qoyduğunu, kişi sürücülərdə isə bu vəziyyət cəmi 5 faizdir. Cosmos Direktin daha öncəki rəy sorğularında 18-29 yaşlı qadın sürücülərin hətta öz maşınları ilə söhbət etdiyi də üzə çıxmışdı. Ekspertlər bu durumu qadınların öz maşınlarına münasibətdə çox həssas olması ilə izah edir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100